12 iyul 2023 №51 (2020)

www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

## Prezident İlham Əliyevin sədrliyi ilə müşavirə keçirilib



Azad edilmiş bölgələrdə biz hər şeyi planlı şəkildə edirik və ən yüksək standartlar orada tətbiq edilir. Bu ilin sonuna qədər Qarabağ və Şərqi Zəngəzura biz təqribən 12 milyard manata qədər vəsaitin xərclənməsini təmin edəcəyik. İki məktəb istisna olmaqla, bütün qalan infrastruktur, inşaat işləri Azərbaycan büdcəsi hesabına həyata keçirilir və Azərbaycan şirkətləri tərəfindən reallaşdırılır.

Prezident İlham Əliyev bunu iyulun 11-də 2023-cü ilin 6 ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirədə çıxışı zamanı deyib.

Dövlət başçısı qeyd edib ki, 2023-cü ilin büdcəsinin dürüstləşməsindən sonra iki əsas istiqamət – Qarabağın, Şərqi Zəngəzurun bərpası və hərbi qüdrətimizin artırılmasıdır. Birinci istiqamətlə əlaqədar hər şey nəzərdə tutulduğumuz planlardan daha sürətlə icra edilir. Bütün güclərimizi səfərbər etmişik.

Zəngilan rayonunun Ağalı kəndindən sonra bu il Talış kəndinə (Tərtər) və Laçın şəhərinə sakinlərin qayıtmasının təmin edildiyini söyləyən İlham Əliyev bildirib ki, ilin sonuna qədər Laçın şəhərinin Zabux və Sus kəndlərinə də keçmiş məcburi köçkünlər qayıdacaqlar: "Qayıdış proqramı ardıcıllıqla aparılır və beləliklə, ilin sonuna qədər bizim artıq beş yaşayış məntəqəmizdə – bir şəhər və dörd kəndimizdə vətəndaşlar öz dədə-baba torpaqlarına tam məskunlaşacaqlar. Bütövlükdə Böyük Qayıdış proqramının birinci mərhələsində 100 yaşayış məntəqəsinin yenidən qurulması nəzərdə tutulur".

Prezident vurğulayıb ki, ölkə qarşısında duran bir çox vəzifələr var. İnfrastruktur layihələri təkcə Qarabağda, Şərqi Zəngəzurda yox, bütün ölkə üzrə həyata keçirilir.

Biz ayrılan hər bir vəsaitə böyük qənaətlə yanaşmalıyıq və şəffaflıq tam təmin edilməlidir – həm büdcə gəlirlərinin toplanmasında, həm də xərclənməsində.

*Müşavirə haqqında ətraflı qəzetin növbəti sayında...*

## Qardaş xalqların ortaq mədəniyyət çətiri

### TÜRKSOY-un yaradılmasının 30 ili tamam olur

Bu gün Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY-un yaradılmasının 30 ili tamam olur. 1993-cü il iyulun 12-də Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkiyə və Türkmənistanın mədəniyyət nazirlərinin iştirakı ilə Almatı şəhərində keçirilən toplantıda "Türk Kültür və Sənətləri Ortaq Yönətimi"nin (TÜRKSOY) yaradılması haqqında saziş imzalanıb. Qurum 2009-cu ildən Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı adlanır. Təşkilatın katibliyi Ankara (Türkiyə) şəhərində yerləşir.

TÜRKSOY-un 6 qurucu üzv ölkəsindən savayı, Şimali Kipr Türk Cümhuriyyəti, eləcə də Rusiya Federasiyasının Altay, Başqırdıstan, Tatarıstan, Tıva, Xakasiya və Saxa-Yakut respublikaları, Moldovanın Qaqauz Yeri muxtar bölgəsi təşkilatda müşahidəçi üzvlük statusuna malikdir.

TÜRKSOY təşkilatı türkdilli xalqların sosial-mədəni oxşarlığının bir araya gətirilməsi, ortaq türk mədəniyyətinin, dilinin, tarixinin, incəsənətinin, adət-ənənələrinin, mədəni irsinin qorunması, araşdırılması, inkişaf etdirilməsi, dünyada tanıdılması və gələcək nəsillərə ötürülməsi məqsədilə qurulub. TÜRKSOY yarandığı gündən qardaş xalqların ortaq mədəniyyət çətiri altında söz və sənət dəyərlərimizi bir araya gətirərək təbliğ edir.

Təşkilatın fəaliyyəti hər il toplantıları keçirilən Mədəniyyət Nazirləri Daimi Şurası tərəfindən müəyyən olunur. Qurumun cari fəaliyyətinə baş katib rəhbərlik edir.

Azərbaycan Respublikasının Rusiyadakı səfiri, keçmiş mədəniyyət naziri, Xalq artisti Polad Bülbüloğlu 1993-cü ildən TÜRKSOY-un ilk baş katibi olub. Ondan sonra təşkilata Qazaxıstanın keçmiş mədəniyyət naziri, musiqi xadimi Düsen Kaseinov (2008-ci ildən) rəhbərlik edib. 2022-ci ilin martında Daimi Şuranın Bursada keçirilən toplantısında Qırğızıstanın keçmiş mədəniyyət naziri, bu ölkənin Xalq yazıçısı Sultan Raev TÜRKSOY-un üçüncü baş katibi seçilib.

Ötən 30 ildə TÜRKSOY ümumtürk mədəni irsinin təbliği və tanıdılması, türkdilli xalqlar, ölkə və diyarlar arasında mədəniyyət, incəsənət sahəsində əlaqələrin inkişaf etdirilməsi istiqamətində böyük işlər görüb, çoxsaylı layihələr həyata keçirib. Bu layihələrin bir çoxu ənənə halını alaraq hər il davam etdirilir.

TÜRKSOY bir sıra beynəlxalq qurumlarla, o cümlədən 1996-cı ildə müqavilə imzaladığı UNESCO ilə, habelə Türk Dövlətləri Təşkilatı, Beynəlxalq Türk Akademiyası, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu ilə sıx əməkdaşlıq edir.

Azərbaycan təşkilatın fəaliyyətində yaxından iştirak edir. TÜRKSOY ölkəmizlə bağlı çoxsaylı birgə layihələr həyata keçirib. Təşkilatın "Türk dünyasının mədəniyyət paytaxtı" layihəsi bu il ikinci dəfə Azərbaycanda reallaşır. 2016-cı ildə bu adı Şəki şəhəri daşımışdı. 2023-cü ildə "Türk dünyasının mədəniyyət paytaxtı" missiyasını Şuşa şəhəri davam etdirir. Bu il həmçinin TÜRKSOY Daimi Şurasında dönəm koordinatorluğunu Azərbaycan həyata keçirir.

*davamı səh. 2-də*

## Uşaq İncəsənət Festivalı çərçivəsində yay düşərgəsi

Xəbər verdiyimiz kimi, iyulun 3-dən Uşaq İncəsənət Festivalının ikinci – regional mərhələsi keçirilir. Bu mərhələ ölkəmizin 14 iqtisadi-coğrafi rayonunun 14 şəhəri üzrə 26 məntəqədə təşkil olunur.

Festival çərçivəsində iyulun 7-də Göygöl Milli Parkının ərazisində Gəncə-Daşkəsən Regional Mədəniyyət İdarəsinin əhatə etdiyi Gəncə və Naftalan şəhərləri, Daşkəsən, Goranboy, Göygöl və Samux rayonlarından 6 nominasiya (xalq çalğı alətləri, rəssamlıq, bədii qiraət, xanəndəlik sənəti, aşıq sənəti, solo milli rəqs) üzrə ikinci mərhələyə vəsiqə qazanan 60 nəfər uşaq üçün yay düşərgəsi təşkil edildi.

Düşərgənin keçirilməsində əsas məqsəd uşaqların asudə vaxtlarının səmərəli təşkili, festival iştirakçıları arasında şəbəkələşmənin təmin edilməsi, onların yay tətillərini daha maraqlı və səmərəli keçirmələrinə şərait yaratmaqdır.




Əməkdar mədəniyyət işçisi, aşıq Samirə Əliyeva özünün belə festivallarda yetişərək formalaşdığını qeyd etdi. Bildirdi ki, bu cür layihələrin keçirilməsi gənc nəslin yetişməsində çox mühüm rol oynayır: "Uşaqlar festivalda iştirak edərək güclü və zəif tərəflərini anlayırlar. Eyni zamanda bizlər də rəqabət şəraitində şagirdlərimizin imkanlarını nəzərdən keçirə bilirik. Mən festivalın birinci turunda da münsiflər heyətində yer almışdım. Bildirməliyəm ki, münsif kimi bizim işimiz çox çətin olacaq. Çünki festivala yetərincə istedadlı uşaqlar qatılıblar".

*davamı səh. 4-də*

## Albaniyada Azərbaycan mədəniyyəti həftəsi təşkil ediləcək

Prezident Bayram Beqay: "Albaniyada tezliklə Azərbaycan mədəniyyəti həftəsi təşkil ediləcək. Əminəm ki, bu ay Albaniyanın şəhərlərinin dünyanın hər yerindən gələn turistlərlə dolu olan bir vaxtda Azərbaycan mədəniyyəti həftəsi bayram abhavasında keçəcəkdir. Bu isə mədəniyyətin xalqları və ölkələri nə dərəcədə yaxınlaşdırdığının təzahürü olacaqdır".

*səh. 2*

## Vatikanla mədəniyyət sahəsində əməkdaşlıq müzakirə olunub

Ölkəmizdə səfərdə olan Müqəddəs Taxt-Tacın – Vatikanın dövlət katibi kardinal Pietro Parolin iyulun 10-da Azərbaycanın mədəniyyət naziri Adil Kərimli ilə görüşüb.

Görüşdə Azərbaycan və Müqəddəs Taxt-Tac arasındakı mövcud əlaqələr, mədəniyyət sahəsindəki layihələr, o cümlədən muzeylər və kitabxanalar arasındakı əməkdaşlıq məsələləri müzakirə edilib.

*səh. 3*

## Vaqif Poeziya Günləri keçiriləcək




13-15 iyul tarixlərində Heydər Əliyev Fondu, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və Azərbaycan Yazıçılar Birliyinin təşkilatçılığı ilə növbəti Vaqif Poeziya Günləri keçiriləcək.

Poeziya günləri iyulun 13-də Molla Pənah Vaqifin doğma yurdu – Qazax rayonunun Yuxarı Salahlı kəndində başlayacaq.

*səh. 2*

## Vətən müharibəsinin şanlı prelüdü

### Tovuz döyüşlərindən üç il ötür...




Azərbaycan Ordusunun qəhrəmanlıq salnaməsində xüsusi yeri olan 2020-ci ilin Tovuz döyüşlərindən (12-16 iyul) üç il ötür. 2016-cı ilin şanlı Aprel döyüşlərindən sonra 2020-ci il Tovuz döyüşləri Vətən müharibəsində tarixi Zəfərə doğru gedən yolda önəmli mərhələ idi. O tarixi xronikanı musiqi-sənət termini ilə ifadə etsək, iyul ayındakı beşgünlük döyüşlər faktiki olaraq 44 günlük müharibə öncəsi qəhrəmanlıq prelüdü idi.

2020-ci il iyulun 12-də Ermənistan silahlı qüvvələrinin bölmələri sərhədin Tovuz rayonu istiqamətində mövqelərimizi müxtəlif çaplı silahlardan atəşə tutaraq hücuma keçməyə cəhd göstərib. Lakin görülən adekvat tədbirlər nəticəsində düşmənə zərbə endirilib və o itki verərək geri oturdulub.

İyulun 13-nə keçən gecə Ermənistan hərbi birləşmələri Tovuz istiqamətində gərginliyi artırmaq məqsədilə artilleriya qurğularından da istifadə etməklə Ordumuzun mövqelərinə, o cümlədən Tovuz rayonunun Ağdam kəndinə yenidən atəş açıb. Düşmənin bu təxribatlarına qarşı qoşunlarımız tərəfindən sərt cavab tədbirləri görülüb.

*davamı səh. 2-də*

## Milli Dram Teatrının tamaşası beynəlxalq festivalda maraqla qarşılanıb

Xəbər verdiyimiz kimi, Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı 5-15 iyul tarixlərində Gürcüstanın Ozurgeti şəhərində keçirilən Nodar Dumbadze adına IV Beynəlxalq Teatr Festivalında iştirak edib. Festivala İspaniya, Qazaxıstan, Ukrayna, Portuqaliya və Özbəkistandan da teatrlar qatılıb.



Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı iyulun 6-da məşhur gürcü yazıçısı Qoderzi Çoxelinin eyniadlı hekayəsi əsasında səhnələşdirilən "Küknarlara məktub" tamaşası ilə çıxış edib.

Yeni səhnə əsərinin quruluşçu rejissoru Boris Şukin adına Teatr İnstitutunun məzunu Nigar Güləhmədovadır. Rolları Əməkdar artistlər Elşən Rüstəmov, Almaz Amanova, Ayşad Məmmədov, aktyorlar Rüstəm Rüstəmov, Ramin Şıxəliyev, Dilarə Nəzərova, Elçin Əfəndi, Firuzə Balayeva, Lalə Süleymanova oynayırlar. Tamaşanın quruluşçu rəssamı Samirə Həsənova, işıq üzrə rəssamı Rafael Həsənov, musiqi tərtibatçısı Kamil İsmayılov, rejissor assistenti Dilbər İsmayılovadır.

*davamı səh. 2-də*

"İpək Yolu"nda növbəti görüşədək...



*səh. 5*

Qobustan qoruğu beynəlxalq əməkdaşlıq və təcrübə mübadiləsinə diqqəti artırır

*səh. 3*



150 yaşlı festivalda rəqslərimiz nümayiş olunub

*səh. 8*

# Prezident İlham Əliyev Müqəddəs Taxt-Tacın dövlət katibini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 10-da Müqəddəs Taxt-Tacın dövlət katibi kardinal Pietro Parolini qəbul edib.



Prezident İlham Əliyev münasibətlərimizin dərinləşdirilməsində qarşılıqlı səfərlərin önəmini qeyd edərək, özünün 2020-ci ildə Vatikana səfərini və Pietro Parolin ilə görüşünü, həmçinin Roma Papası Fransiskin ölkəmizə səfərini məmnunluqla xatırlayıb.

Dövlətimizin başçısı kardinal Pietro Parolinin səfərinin əlaqələrimizin genişlənməsi işinə töhfə verəcəyinə əminliyini vurğulayıb.

Azərbaycan Prezidenti ilə görüşdən məmnunluğunu ifadə edən kardinal Pietro Parolin Roma Papası Fransiskin salamlarını və xoş arzularını, həmçinin ölkəmizdə katolik icmaya göstərilən diqqətə görə təşəkkürünü dövlətimizin başçısına çatdırıb.

Prezident İlham Əliyev salamlara və xoş sözlərə görə minnətdarlığını bildirib, onun da salamlarını Roma Papasına çatdırmağı xahiş edib.

Kardinal Pietro Parolin Azərbaycanın Müqəddəs Taxt-Tacda səfirliyinin açılmasına görə də təşəkkürünü bildirib.

Söhbət zamanı Heydər Əliyev Fondu ilə Müqəddəs Taxt-Tac arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi bildirilib.

Pietro Parolin ölkəmizdə dini abidələrin bərpası istiqamətində görülən işləri vurğulayıb, katolik kilsəsində aparılan bərpa işlərinə görə Heydər Əliyev Fondunun fəaliyyətini yüksək qiymətləndirib.

# Ermənilərin törətdiyi vandalizmlə bağlı Vatikan nümayəndəsinə məlumat verilib

Ölkəmizdə səfərdə olan Vatikanın dövlət katibi Pietro Parolin ilə Xarici İşlər Nazirliyində də görüş keçirilib.

Nazir Ceyhun Bayramov Azərbaycanın Vatikanla münasibətlərə böyük əhəmiyyət verdiyini və bu xüsusda ölkəmizin Vatikanda səfirliyinin fəaliyyətə başlamasının önəmini qeyd edib.

Nazir, həmçinin qarşı tərəfə 44 günlük Vətən müharibəsindən sonrakı vəziyyət, eləcə də azad edilmiş ərazilərimizdə işğal zamanı törədilmiş vandalizm və dağıdılmış mədəni və dini irs barədə ətraflı məlumat verib. Bununla yanaşı, qonağa Ermənistanın törətdiyi və davam edən mina təhdidləri və digər təxribatları barədə də məlumat verilib, 90-cı illərdən bəri 3800-dən çox itkin düşmüş azərbaycanlı barədə hələ də məlumatın olmadığı diqqətə çatdırılıb.

Görüşdə Azərbaycanın Vatikanın tarixi və dini məkanlarının bərpasında iştirakı məmnunluqla qeyd edilib və bunun mədəniyyətlərarası dialoqa bir töhfə kimi qiymətləndirildiyi diqqətə çatdırılıb.

# "Gül dəftəri" ilə bağlı UNESCO-nun sertifikatı Əlyazmalar İnstitutuna təqdim olunub

Xəbər verdiyimiz kimi, AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda saxlanılan Xurşidbanu Natəvanın "Gül dəftəri" təsvirli şeirlər albomu UNESCO-nun Dünya Yaddaşı Beynəlxalq Reyestrinə salınıb.

UNESCO-nun baş direktorunun imzası ilə müvafiq sertifikat bu günlərdə Əlyazmalar İnstitutuna təqdim edilib.

AMEA-dan bildirilib ki, bu əlamətdar hadisə Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu ilə bərabər, ölkəmizin aidiyyəti qurumlarının birgə uğurlu fəaliyyətinin nəticəsidir. Gələcəkdə bu kimi sənədli irsimizin digər nümunələrinin sözügedən reyestrə daxil edilməsi ölkəmizin zəngin mədəniyyətinin beynəlxalq səviyyədə tanıdılmasına töhfə verəcək.

Qeyd edək ki, Xurşidbanu Natəvanın "Gül dəftəri – illüstrasiyalı şeirlər albomu" nominasiyası Əlyazmalar İnstitutunun Beynəlxalq elmi-mədəni əlaqələr şöbəsinin müdiri dosent Nigar Babaxanova tərəfindən tərtib edilərək UNESCO-nun müvafiq komissiyasına təqdim olunub.

# Qardaş xalqların ortaq mədəniyyət çətiri

## TÜRKSOY-un yaradılmasının 30 ili tamam olur

*əvvəli səh. 1-də*




Mayın 12-də Azərbaycan Mədəniyyət Nazirliyi və TÜRKSOY-un birgə təşkilatçılığı ilə "Şuşa – Türk dünyasının mədəniyyət paytaxtı – 2023" ilinin rəsmi açılış mərasimi keçirilib. 9-11 may tarixlərində Şuşada keçirilən "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalına TÜRKSOY ölkələrinin musiqi və rəqs qrupları, sənət adamları da qatılıb. İlin sonunadək TÜRKSOY-un iştirakı ilə Azərbaycanda, o cümlədən mədəniyyət paytaxtımız Şuşada silsilə tədbirlər davam edəcək. Həmçinin TÜRKSOY-un xətti ilə Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş tədbirlər də nəzərdə tutulur.

Hər il, təşkilatın digər üzvləri kimi, Azərbaycanın da görkəmli mədəniyyət, ədəbiyyat xadimlərinin adına TÜRKSOY-un xatirə ili elan olunur. Bu il bu sırada anadan olmasının 100 illiyi qeyd olunan görkəmli teatr rejissoru Tofiq Kazımov da var.

# Albaniyada Azərbaycan mədəniyyəti həftəsi təşkil ediləcək

## "Bu, mədəniyyətin xalqları nə dərəcədə yaxınlaşdırdığının təzahürü olacaq..."

Biz dostluq və qarşılıqlı dəstəyə əsaslanan ikitərəfli əlaqələrimizdə çox xüsusi dinamika yaratmışıq. Biz beynəlxalq təşkilatlarda fəal çalışırıq, ilk növbədə, Birləşmiş Millətlər Təşkilatında və İslam Əməkdaşlıq Təşkilatında bir-birimizə dəstək veririk. Eyni zamanda, biz Azərbaycanın olmadığı təşkilatlarda ölkəmizi dəstəklədiyinə görə Albaniyaya çox minnətdarıq.



Azərbaycan Prezidenti İlham Əliyev bu sözləri iyulun 7-də Bakıda Albaniya Prezidenti Bayram Beqay ilə görüşdən sonra mətbuata bəyanatında deyib.

Dövlət başçısı ötən il Beynəlxalq Frankofoniya Təşkilatının sammitində Albaniyanın Azərbaycana verdiyi dəstəyi xüsusi qeyd edərək bildirib ki, sammitin yekun sənədinə anti-Azərbaycan mahiyyətli bənd (Fransanın dəstəyi ilə Ermənistanla həmrəyik ifadə olunması – red.) Albaniya tərəfindən bloklanmışdı: "Həmin addım dostluğun, eləcə də ölkələrin ərazi bütövlüyü və suverenliyi kimi beynəlxalq hüququn əsas prinsiplərinə qəti sadiqliyin təzahürü oldu. Hətta Azərbaycan özünü müdafiə etmək fürsətinə malik olmadığı təşkilatlarda belə, bizim Albaniya kimi qardaş ölkəmiz var və o, bu dəstəyi verdi. Buna görə biz çox minnətdarıq".

Albaniya rəhbəri ilə görüşdə siyası əməkdaşlıqla bərabər, gündəlikdə duran ticari, iqtisadi məsələləri, sərmayə imkanlarının nəzərdən keçirildiyini deyən İlham Əliyev vurğulayıb ki, Azərbaycan sərmayədarları dost ölkədə turizm, kənd təsərrüfatı və digər sahələrdə sərmayə layihələrini ciddi araşdırmağa hazırdırlar: "Hesab edirəm ki, gələn aylarda bizim bu haqda daha çox məlumatımız olacaq və həmçinin münasibətlərimizdə yeni səhifə açılacaq. Bu ilin sonunadək biz Avropa İttifaqına üzv olan daha çox sayda ölkələrin Azərbaycandan təbii qazı alacağını gözləyirik. Həmçinin əvvəlki təmaslarımızda müzakirə olunan mövzulardan biri Albaniyanın qazlaşdırılması layihəsi idi və sınaq layihəsi seçilmişdi. Bu gün bizə nümayəndə heyətlərinin üzvləri tərəfindən məlumat verildiyi kimi, işlər cədvələ uyğun gedir və ilin sonunadək bizdə artıq bu layihənin texniki-iqtisadi əsaslandırılması olacaq. Bundan sonra isə ümid edirəm ki, biz dərhal investisiyalara başlayacağıq".

Prezident Bayram Beqay bu il iki ölkə arasında diplomatik əlaqələrin qurulmasının 30-cu ildönümünün tamam olduğunu qeyd edərək bildirib ki, bu əlaqələrdən fərəhlənmək üçün bizim bir çox səbəbimiz var. Ötən il Prezident İlham Əliyevin Albaniyaya ilk dəfə səfər etdiyini deyən Bayram Beqay diqqətə çatdırıb ki, səfərdən qısa müddət sonra Azərbaycan Tiranada səfirlik açmaq barədə qərar qəbul etdi. Eyni qaydada Albaniya da 2023-cü ildə Bakıda səfirliyin açılması ilə bağlı qərar qəbul edib: "Hər iki qərar ölkələrimizi bir-birinə daha da yaxınlaşdıracaq, yüksək səviyyəli siyasi dialoqu daha da gücləndirəcək, eləcə də iqtisadi əməkdaşlığı və digər məsələləri daha da təşviq edəcək".

İki ölkənin enerji sektorunda əməkdaşlıqla bir-birinə sıx bağlı olduğunu vurğulayan Albaniya rəhbəri ölkəsinin Azərbaycan qazını Avropaya nəql edən TAP layihəsindən (Trans-Adriatik boru xətti) faydalandığını bildirib.

"Ağır dövrdə kömək göstərilməsi xalqlar və dövlətlər tərəfindən unudulmayan jestdir" deyən qonaq 2019-cu ilin noyabrında baş vermiş faciəvi zəlzələdən sonra Azərbaycanın Albaniyaya dəstəyinə görə bir daha minnətdarlığını ifadə edib: "Əsl dost dar gündə tanınar".

Prezident Bayram Beqay Albaniya və Azərbaycan arasında mədəni sahədə də əməkdaşlığı inkişaf etdirmək istədiklərini vurğulayıb: "Albaniyada tezliklə Azərbaycan mədəniyyəti həftəsi təşkil ediləcək. Əminəm ki, bu ay Albaniyanın şəhərlərinin dünyanın hər yerindən gələn turistlərlə dolu olan bir vaxtda Azərbaycan mədəniyyəti həftəsi bayram ab-havasında keçəcəkdir. Bu isə mədəniyyətin xalqları və ölkələri nə dərəcədə yaxınlaşdırdığının təzahürü olacaqdır".

O, turizmin də hər iki ölkə üçün prioritet sahə olduğunu deyib: "Bu səbəbdən əməkdaşlığın inkişafı və turizm baxımından Azərbaycanın sərmayə qoyuluşu arzuolunandır. Viza rejiminin ləğvi xalqlarımızın yaxınlaşdırılmasının daha bir yoludur".

Albaniya rəhbəri bildirib ki, Azərbaycana səfəri və son dövrdə yüksək səviyyəli dövlət rəsmilərinin həyata keçirdikləri digər səfərlər ölkələrimiz arasında münasibətlərin möhkəmləndirilməsinə müsbət təkan verir.

# Vaqif Poeziya Günləri keçiriləcək

13-15 iyul tarixlərində Heydər Əliyev Fondu, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və Azərbaycan Yazıçılar Birliyinin təşkilatçılığı ilə növbəti Vaqif Poeziya Günləri keçiriləcək.

Poeziya günləri iyulun 13-də Molla Pənah Vaqifin doğma yurdu – Qazax rayonunun Yuxarı Salahlı kəndində başlayacaq.

İyulun 14-15-də isə Vaqif Poeziya Günləri mədəniyyət paytaxtımız Şuşada davam edəcək.

Şuşa Vaqif üçün çox böyük əhəmiyyətə malik olub. O, Qazaxda dünyaya göz açsa da, Şuşada məşhurlaşıb, Qarabağ xanlığının baş vəziri olub. Vaqifin Şuşada yaşadığı dövrdə bu şəhər Azərbaycanın önəmli mədəniyyət mərkəzinə çevrilmişdi.

Vaqif Poeziya Günləri çərçivəsində Şuşanın müxtəlif tarixi və mədəni məkanlarında, o cümlədən Heydər Əliyev Fondu tərəfindən bərpa olunan Molla Pənah Vaqifin muzey-məqbərə kompleksi, həmçinin Natəvanın evi qarşısında, Azərbaycan Milli Xalça Muzeyinin Şuşa filialında, "Xarıbülbül" və "Qarabağ" hotellərində tədbirlər keçiriləcək.

Qeyd edək ki, bu il 100 illiyi qeyd edilən Ümummilli lider Heydər Əliyevin iştirakı ilə 1982-ci il yanvarın 14-də Şuşada Molla Pənah Vaqifin məqbərəsinin və Poeziya Evinin təntənəli açılışı olub. Məhz həmin səfər zamanı Heydər Əliyev Vaqif Poeziya Günlərinin keçirilməsi ilə bağlı göstəriş verib. Söz-sənət bayramı ilk dəfə 1982-ci ilin iyulunda təşkil edilib və 1991-ci ilədək hər il keçirilib.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuz Şuşanı erməni işğalından azad etdikdən sonra, 2021-ci ildən Vaqif Poeziya Günləri yenidən mədəniyyət paytaxtımızda keçirilməkdədir.

# Vətən müharibəsinin şanlı prelüdü

## Tovuz döyüşlərindən üç il ötür...

*əvvəli səh. 1-də*

Həmin gün Prezident İlham Əliyevin sədrliyi ilə Təhlükəsizlik Şurasının iclası keçirilib. Bölmələrimiz düşmənin təxribatlarının qarşısının alınması məqsədilə cəza tədbirləri görüblər.

Şiddətli döyüşlər iyulun 13-dən 14-nə keçən gecə və səhər saatlarında davam edib. İki sutka ərzində qarşı tərəfə sarsıdıcı atəş zərbələri endirilib. Böyük itki verən düşmən geri çəkilib.

İyulun 14-də Ermənistan silahlı birləşmələri Tovuz rayonunun Ağdam, Əlibəyli və Dondar Quşçu kəndlərini iriçaplı silahlardan və artilleriya qurğularından atəşə məruz qoyub. Həmin vaxt müdafiənin ön xəttində olan Azərbaycan Ordusunun general-mayoru Polad Həşimov və polkovnik İlqar Mirzəyev, eləcə də düşmən hücumunun qarşısını alarkən beş hərbi qulluqçumuz qəhrəmancasına şəhid olublar. Bu, Azərbaycan Ordusunun yüksəkrütbəli zabitlərinin əsl vətənpərvərliyini, cəbhənin ön xəttində döyüş tapşırıqlarını ləyaqətlə yerinə yetirməsini dünyaya nümayiş etdirib.

Düşmən mülki əhalini və yaşayış məntəqələrimizi də atəşə tutub. Bu hadisələrdən sonra Ali Baş Komandan Ermənistana qarşı cəza əməliyyatının başlanmasına dair göstəriş verib, Azərbaycanın ərazi bütövlüyünü qoruyacağını qətiyyətlə ifadə edib.

Azərbaycan Ordusu şəhidlərimizin qisasını alıb, düşmənin atəş mövqeyindəki artilleriya qurğusu döyüş heyəti ilə birlikdə bölmələrimizin sərrast atəşi ilə yerlə yeksan edilib. Bir gün sonra görülən cəza tədbirləri nəticəsində Ermənistan silahlı qüvvələrinə məxsus döyüş texnikası və daha bir bölüyün dayaq məntəqəsi məhv edilib.



Tovuz döyüşlərinin mühüm əhəmiyyəti xalqımızın Ali Baş Komandanın rəhbərliyi ilə düşmənə qarşı qəhrəmancasına döyüşən Ordumuzla milli həmrəylik nümayiş etdirməsi idi. İyulun 15-nə keçən gecə on minlərlə gənc paytaxtda yürüş edərək Azərbaycan Ordusuna dəstəyini göstərib.

Nazirlər Kabinetinin iyulun 15-də keçirilmiş iclasında Prezident İlham Əliyevin "Əgər kimsə, hansısa vətənpərvər insan orduda xidmət etmək istəyirsə, mən bunu ancaq alqışlayıram" çağırışına səs verən minlərlə vətəndaşımız könüllü şəkildə orduda xidmət etmək barədə arzularını bildirib və müvafiq qaydada qeydiyyata alınıblar.

İyulun 16-da səhər mövqelərimizə yenidən hücum etməyə cəhd göstərən düşmən cavab atəşi ilə susdurulub.

Tovuz döyüşləri zamanı Silahlı Qüvvələrimizin 12 hərbi qulluqçusu şəhidlik zirvəsinə ucalıb və 1 mülki şəxs həlak olub. Xalq öz mərd, vətənsevər oğullarını böyük izdihamla son mənzilə yola salıb.

2020-ci ilin iyulunda baş vermiş döyüşlər Azərbaycanın döyüş meydanında Ermənistana necə ağır zərbə vura biləcəyini göstərib. Döyüşlərdə düşmənin yüzdən çox hərbçisi məhv edilib, onlarla döyüş texnikası sıradan çıxarılıb.

Bu döyüşlərdən təxminən iki ay sonra düşmənin növbəti təxribatının qarşısını almaq üçün genişmiqyaslı əks-həmlə əməliyyatına başlayan rəşadətli Azərbaycan Ordusu 44 günlük Vətən müharibəsində Ermənistanı diz üstə qoyaraq torpaqlarımızı işğaldan azad etdi.

# Milli Dram Teatrının tamaşası beynəlxalq festivalda maraqla qarşılanıb

*əvvəli səh. 1-də*

Tamaşa müharibədə yaralanan və kürəyinə batmış küknar ağacı ilə qayıdan əsgərin cəmiyyətə uyğunlaşa bilməməsi, hamı kimi normal həyatı yaşamağı bacarmaması haqqındadır. Ətrafında olan insanlar onu cəmiyyətə uyğunlaşdırmaq istəsələr də, bütün cəhdlər boşa çıxır. Yaralı əsgər cəmiyyəti yox, təbiəti seçir, ağaca və torpağa çevrilir. Müəllifin mövqeyinə görə ən ciddi qayıdış təbiətə olmalıdır. Baş qəhrəman yaralanmağına, müharibədə çəkdiyi bütün əzablara baxmayaraq, təbiətlə ahəngdə yaşayır, Yaradana qayıdış yolunu tapır. Yaşatmaq missiyalı insan müharibələrin vurduğu yaraları belə sağaltmaq istəyir.



Səhnə əsəri böyük maraqla və alqışlarla qarşılanıb.

# Azərbaycanla Vatikan arasında mədəniyyət sahəsində əməkdaşlıq müzakirə olunub

Xəbər verildiyi kimi, Müqəddəs Taxt-Tacın – Vatikanın dövlət katibi kardinal Pietro Parolin Azərbaycana səfər edib.

Vatikanın dövlət katibi Pietro Parolin iyulun 10-da Azərbaycanın mədəniyyət naziri Adil Kərimli ilə görüşüb.

Görüşdə Azərbaycan və Müqəddəs Taxt-Tac arasındakı mövcud əlaqələr, mədəniyyət sahəsindəki layihələr, o cümlədən muzeylər və kitabxanalar arasındakı əməkdaşlıq məsələləri müzakirə edilib.

Vatikanın dövlət katibi 2023-cü ildə Bakıda keçiriləcək Dünya Mədəniyyətlərarası Dialoq Forumuna dəvət olunub.





***

Müqəddəs Taxt-Tacın dövlət katibi kardinal Pietro Parolin iyulun 10-da Fəxri xiyabanı və Şəhidlər xiyabanını ziyarət edib.

Pietro Parolin Fəxri xiyabanda Ümummilli lider Heydər Əliyevin məzarı önünə gül dəstəsi qoyaraq əziz xatirəsini ehtiramla anıb.

Müqəddəs Taxt-Tacın dövlət katibi ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olan vətəndaşlarımızın məzarlarını ziyarət edib, "Əbədi məşəl" abidəsi önünə gül dəstəsi qoyub.

Kardinal Pietro Parolin daha sonra Heydər Əliyev Mərkəzində olub. Heydər Əliyev Mərkəzinin direktoru Anar Ələkbərov qonağa Mərkəzin fəaliyyət istiqamətləri və burada nümayiş olunan sərgilər barədə məlumat verib.

***

Vatikanın dövlət katibi Bakıda "Tereza Ananın mərhəmət bacıları" sığınacağında və Müqəddəs Məryəm katolik kilsəsində də olub.

İyulun 11-dək davam edən səfər çərçivəsində Müqəddəs Taxt-Tacın dövlət katibi dini icmaların nümayəndələri ilə də görüşlər keçirib.

Azərbaycanla Vatikan arasında əlaqələr xüsusilə 2002-ci ildə Papa II İohann Pavelin Bakıya səfərindən sonra böyük inkişaf yolu keçib. 2016-cı ildə Papa Fransiskin ölkəmizə səfəri bu əməkdaşlığa yeni zəmin yaradıb.

Müqəddəs Taxt-Tac ilə Heydər Əliyev Fondu arasında da səmərəli əməkdaşlıq qurulub. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə Fond tərəfindən Vatikanda bəşəri əhəmiyyət daşıyan bir sıra tarixi abidələrin bərpası mədəni irsin qorunmasına mühüm töhfədir. Həmin layihələr dünya mədəni, tarixi və dini irsinin qorunması ilə yanaşı, mədəniyyətlər və dinlərarası əlaqələrin inkişafında Azərbaycanın rolunu bir daha təsdiqləyir.

# "Yeni adlar"ın növbəti mövsümü başa çatdı




Mədəniyyət Nazirliyinin "Yeni adlar" layihəsi müasir Azərbaycan ifaçılıq sənətinin inkişaf etdirilməsi, bu sahədə yeni istedadların yetişməsi və tanıdılması məqsədi daşıyır. 2022-ci ilin mart ayından həyata keçirilən layihə bu sənət mövsümündə də maraqlı konsert proqramları ilə yadda qaldı. Bu il layihə Ulu öndər Heydər Əliyevin 100 illiyinə həsr olunub.

### Filarmoniyada piano və trombon ifaçılarının çıxışı

İyulun 8-də Müslüm Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında "Yeni adlar"ın növbəti konserti keçirilib.

Konsertdə respublika və beynəlxalq müsabiqələr laureatları Nərgiz Kəngərli, Eldəniz Ələkbərzadə (hər ikisi piano), Kamal Qədirov (trombon) çıxış ediblər.

Gənc musiqiçiləri Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri (dirijor Mustafa Mehmandarov) müşayiət edib.

Proqramda F.Pulenkin "İki piano və orkestr üçün konsert"i (d-moll, FP 61) və L.Qröndahlın "Trombon və simfonik orkestr üçün konsert"i ifa olunub. Orkestrin və gənc musiqiçilərin ahəngdar çıxışı tamaşaçıların alqışları ilə qarşılanıb.

***

Bundan öncə də "Yeni adlar" layihəsində çıxış edən Nərgiz Kəngərli 2008-ci ildə Bakı Musiqi Akademiyasının (BMA) məktəbstudiyasını, 2012-ci ildə BMA-nı bakalavr, 2004-cü ildə isə magistr səviyyəsi üzrə fərqlənmə diplomu ilə başa vurub. 2004-cü ildə pianoçuların Q.Qarayev adına II Beynəlxalq müsabiqəsinin laureatı olub. 2012-ci ildə Litvada keçirilən "Hüdudsuz musiqi" ("Music Without Limits") XII Beynəlxalq festival-müsabiqəsində, 2015-ci ildə VII Qəbələ Beynəlxalq Musiqi Festivalı çərçivəsində təşkil olunan müsabiqədə laureat adını qazanıb. 2013-cü ildən BMA-də pedaqoji fəaliyyətlə də məşğuldur.

Eldəniz Ələkbərzadə 1996-cı ildə Bakıda anadan olub. 2003-2012-ci illərdə Sankt-Peterburq şəhərindəki V.Andreyev adına Musiqi məktəbində təhsil alıb. 2016-cı ildə Azərbaycan Milli Konservatoriyası (AMK) nəzdində Musiqi Kollecini, 2020-ci illərdə Bakı Musiqi Akademiyasını fərqlənmə diplomu ilə başa vurub. Hazırda təhsilini Paris şəhərindəki "Ecole Normale Alfred Cortot" məktəbində davam etdirir. 2015-ci ildə Türkiyənin İzmir şəhərində "Mozart Academy" beynəlxalq müsabiqəsində I yerə layiq görülüb. 2019-cu ildə İtaliyanın Qrosseto şəhərində keçirilən A.Skryabin adına beynəlxalq müsabiqədə diplomant adını qazanıb. Gənc musiqiçinin respublikanın müxtəlif səhnələrində konsertləri təşkil edilib.

Kamal Qədirov 1991-ci ildə Bakıda anadan olub. İlk musiqi təhsilini Mərdəkan qəsəbəsində 17 saylı Musiqi məktəbində alıb, daha sonra AMK nəzdində Musiqi Kollecində oxuyub. 2022-ci ildə isə BMA-nın bakalavr pilləsini instrumental ifaçılıq (trombon) ixtisası üzrə fərqlənmə diplomu ilə bitirib. 2019-cu ildə XI Qəbələ Beynəlxalq Musiqi Festivalında çıxış edib. Hazırda ölkənin bir çox ansambl və orkestrlərində solist kimi musiqi fəaliyyətini davam etdirir.

### Muzeydə klassik musiqi axşamı

"Yeni adlar" layihəsi üzrə daha bir musiqi axşamı iyulun 10-da Azərbaycan Milli İncəsənət Muzeyində gerçəkləşdi.

Prezident təqaüdçüləri Atabala Manafzadə (piano) və Orxan Hüseynov (violonçel) musiqisevərlər qarşısında çıxış etdilər.



Tamaşaçılar arasında Prezident Administrasiyası Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva, mədəniyyət və incəsənət xadimləri və digər qonaqlar var idi.

Proqramda F.Şubertin "Sonata" (a-moll, d.821), R.Şumanın "Fantasiestücke" (op.73) və D.Şostakoviçin "Sonata" (d-moll, op.40) əsərləri ifa edildi.

***

Atabala Manafzadə 1998-ci ildə anadan olub. 2015-ci ildə G.Şaroyev adına 35 nömrəli Musiqi məktəbini, 2019-cu ildə BMA-nın bakalavr pilləsini (fərqlənmə diplomu) bitirib, təhsilini magistraturada davam etdirib. Təhsil müddətində A.Ragone, Y.Boqdanov, A.Əliyeva, A.Duran, E.Podlodski və digər dünya şöhrətli pianoçulardan ustad dərsləri alıb. Serbiyanın paytaxtı Belqradda IX "Davorin Jenko" beynəlxalq müsabiqəsində iki yaş qrupunda I dərəcəli diploma layiq görülüb. İstanbulda VII "Pera piano" müsabiqəsində də birinci yeri qazanıb. O, həmçinin Aleksandr Skryabinin əsərinin ən yaxşı ifaçısı nominasiyasında birinci olub. Adı Azərbaycanın gənc istedadlarının "Qızıl kitabı"na yazılaraq Prezidentin aylıq təqaüdünə layiq görülüb.

Orxan Hüseynov 1999-cu ildə Bakıda doğulub. 2016-cı ildə Q.Qarayev adına Mərkəzi İncəsənət Məktəbini, 2020-ci ildə BMA İnformatika fakültəsində bakalavr (SABAH qrupları), 2022-ci ildə isə magistr pilləsini fərqlənmə ilə bitirib. 2013-cü ildə keçirilən "İslam dünyası" gənclərinin II beynəlxalq müsabiqəsi və 2016-cı ildə Gürcüstanda təşkil olunan VI "Harmoniya" beynəlxalq müsabiqələrinin qalibi olub. Azərbaycan Dövlət Simfonik Orkestri, Azərbaycan Dövlət Kamera Orkestri ilə birlikdə konsertlərdə çıxışlar edib. Həmçinin Paris, Berlin, Moskva, Tbilisi və s. şəhərlərdə konsertlərdə səhnəyə çıxıb. 2016-cı ildə Prezident təqaüdünə layiq görülərək adı Azərbaycanın gənc istedadlarının "Qızıl kitabı"na yazılıb. 2022-ci ildə dövlət başçısının sərəncamı ilə "Gənclər üçün Prezident mükafatı"na layiq görülüb. 2020-ci ildən "Baku Chamber Orchestra"də fəaliyyət göstərir.

Bununla da "Yeni adlar"ın növbəti mövsümü başa çatdı. Layihə sentyabrdan yeni mövsümdə davam edəcək.

**Nurəddin**

# Bakıda Dünya dini liderlərinin III Sammitinə hazırlıq görülür

## Vatikan da forumda yüksək səviyyədə təmsil olunacaq

Müqəddəs Taxt-Tacla Azərbaycan Respublikası arasında, habelə Roma Katolik Kilsəsi ilə Qafqaz Müsəlmanları İdarəsi arasında münasibətlər yüksək səviyyədədir. Qafqaz Müsəlmanları İdarəsinin Vatikanla əlaqələri inkişaf edir.

Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri şeyxülislam Allahşükür Paşazadə bu sözləri iyulun 10-da Müqəddəs Taxt-Tacın dövlət katibi kardinal Pietro Parolin ilə görüşündə söyləyib.

A.Paşazadə qeyd edib ki, etnik və dini müxtəliflik multikultural Azərbaycan dövlətinin milli sərvətidir. Biz bu monolitliyi, dini-mənəvi harmoniyanı, xalq-dövlət birliyini Azərbaycan xalqının Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində əyani şəkildə nümayiş etdirdik. Məscid və məbədlərimizi yerlə-yeksan edən erməni vandalizminin izlərini bütün dünya görür. Dövlətimiz işğaldan azad etdiyimiz ərazilərdə vandalizm qurbanı olmuş dini-mənəvi irsimizi heç bir ayrı-seçkilik qoymadan bərpa edir, yenidən qurur.

"Lakin təəssüflər olsun ki, əsrlər boyu bütün dini icmaların sülh və əmin-amanlıq şəraitində yaşadığı Azərbaycana qarşı ermənilərin körüklədiyi əsassız, ədalətsiz və qərəzli ittihamlar səngimir. Erməni revanşistləri müxtəlif beynəlxalq təşkilatların tribunalarından ölkəmiz əleyhinə iftira kampaniyaları aparır, hətta dini platformadan – Dünya Kilsələr Şurasından öz məkrli siyasi məqsədləri üçün sui-istifadə edirlər", – deyə Allahşükür Paşazadə vurğulayıb.

Azərbaycanda Dünya dini liderlərinin III Sammitinə hazırlıq görüldüyünü deyən QMİ sədri əmin olduğunu bildirib ki, dünyanın mühüm dini mərkəzi olan Vatikan bu forumda da yüksək səviyyədə təmsil olunacaq.

Allahşükür Paşazadə Vatikanda Qafqaz Müsəlmanları İdarəsinin nümayəndəliyinin təsis olunması istəyini də dilə gətirib. "Bu, ənənəvi əlaqələrimizin təşkilati baxımdan da möhkəmlənməsi üçün vacibdir", – deyə o əlavə edib.

# "XX əsrin musiqisi" – Qara Qarayevin evində konsert




Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin filialı olan Qara Qarayevin Ev-Muzeyində "XX əsrin musiqisi" silsiləsindən ilk konsert keçirilib.

İyulun 7-də gerçəkləşən konsertdən əvvəl Qara Qarayevin Ev-Muzeyinin müdiri Züleyxa Bağırova-Qarayeva layihə haqqında məlumat verib. Qeyd olunub ki, layihə çərçivəsində XX əsrdə yaşamış Azərbaycan və xarici ölkə bəstəkarlarının əsərləri səslənəcək.

Sonra söz musiqiyə verilib. Pianoçu, beynəlxalq və respublika müsabiqələri laureatı Müşfiq Quliyev və skripkaçı Təhminə Abdullayeva Qara Qarayev və Klod Debüssinün əsərlərini səsləndiriblər.

Növbəti konsertlərə musiqi məktəblərinin şagirdləri və konservatoriyanın tələbələri, həmçinin geniş tamaşaçı rəğbəti qazanmış musiqiçilərin cəlb olunması nəzərdə tutulub.

# Mədəniyyət mərkəzində kukla tamaşası



Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin Nizami adına Mədəniyyət Mərkəzində yazıçı C.Səlimovun "Acı nəticə" əsəri əsasında hazırlanan kukla tamaşası nümayiş olunub.

Nümayişdən əvvəl Mərdəkan Mədəniyyət Sarayında fəaliyyət göstərən Xalq teatrının aktyorları müxtəlif nağıl qəhrəmanlarının obrazları timsalında uşaqlarla maraqlı oyunlar keçirib, rəqs ediblər.

Sonra Xalq teatrı aktyorlarının ifasında səhnə işi təqdim olunub. 221 saylı uşaq bağçasının körpə fidanları tamaşanı maraqla izləyiblər.

# Qobustan qoruğu beynəlxalq əməkdaşlıq və təcrübə mübadiləsinə diqqəti artırır

Tədqiqat işlərində beynəlxalq təcrübəyə və əməkdaşlığa önəm verən Qobustan Milli Tarix-Bədii Qoruğunda "Qərbi Asiyada ibtidai incəsənətin yaranması, inkişafı və yayılması: Qobustan (Azərbaycan)" layihəsinin növbəti mərhələsinə start verilib.

Qoruqdan bildirilib ki, layihə Qobustan qayaüstü incəsənətinin öyrənilməsinə töhfə olmaqla yanaşı, beynəlxalq əlaqələrin inkişafı baxımından da əhəmiyyət kəsb edir.

İspaniyanın Palarq Fondu (Fundacion Palarq / Fundacion Atapuerca) və İtaliya Xarici İşlər Nazirliyi tərəfindən maliyyələşdirilən layihə 2019-cu ildən həyata keçirilir. Layihə çərçivəsində Qobustan qoruğundakı Böyükdaş dağının yuxarı səki sahəsində yerləşən Ana zağa düşərgəsinin qayaüstü incəsənətinin, həmçinin düşərgədən qeydə alınmış üzəri təsvirli kiçikölçülü daşların müasir elmi metodlarla öyrənilməsi həyata keçirilir.

Layihənin tətbiqi qayaüstü təsvirlərin öyrənilməsində ən mühüm məsələlərdən olan xronologiya probleminə aydınlıq gətirəcək. Layihədə İspaniyadan Madrid Computlense Universitetinin professoru Marcos Garcia Diez, fəlsəfə doktoru Blanca Ochoa Fraile, İtaliyadan Ferrara Universitetinin fəlsəfə doktoru Dario Sigari və Qobustan Milli Tarix-Bədii Qoruğunun aparıcı elmi işçisi Sevinc Şirinli iştirak edirlər.



Tədqiqat işlərinə qoruğun aparıcı elmi işçiləri Günay Verdiyeva, Nuranə Həsənova və abidə mühafizi Rafael Bəkirov cəlb olunacaq.

***

Bu arada Qobustan Milli Tarix-Bədii Qoruğunun direktoru Vüqar İsayevin başçılığı ilə bir qrup əməkdaş Rusiya Federasiyası Başqırdıstan Respublikasında elmi ezamiyyətdə olublar. Səfər çərçivəsində qoruq əməkdaşları dünyanın ən məşhur Paleolit dövrü qayaüstü incəsənət abidələrindən olan Şulqan-Taşda aparılan tədqiqat işləri ilə maraqlanıblar, arxeoloji abidələrin öyrənilməsi və qeydə alınması ilə bağlı təcrübə mübadiləsi aparıblar.

Qoruqdan bildirilib ki, qazıntı prosesinin dron aparatı vasitəsilə sənədləşdirilməsi prosesində iştirak edən əməkdaşlara aşkarlanmış arxeoloji materialların təmizlənməsi, qeydə alınması və rəqəmsal texnologiyanın köməyi ilə onların məlumat bazasının hazırlanması haqqında məlumat verilib. Qoruq əməkdaşları Şulqan-Taş Muzey Kompleksinin istifadəyə verilməsinin birinci ildönümü münasibətilə təşkil olunmuş seminarda da iştirak ediblər. Seminarda çıxış edən Vüqar İsayev qoruqda aparılan elmi tədqiqat işləri, beynəlxalq əməkdaşlıq və yeni layihələr barədə məlumat verib.

Səfər zamanı əməkdaşlığın davam etdirilməsi, qoruqlar arasında təcrübə mübadiləsinin aparılması və qarşılıqlı sərgilərin keçirilməsi barədə ilkin razılıq əldə olunub.

№51 (2020)
12 iyul 2023
www.medeniyyet.az

# Uşaq İncəsənət Festivalı çərçivəsində yay düşərgəsi



əvvəli səh. 1-də

Əməkdar müəllim, xanəndə Qəzənfər Abbasov yay düşərgəsinin əhəmiyyətini yüksək qiymətləndirdi: "Müxtəlif bölgələrdən olan uşaqların bir yerə cəm olmağı təqdirəlayiqdir. Mən festivalın təşkilatçılarına öz təşəkkürümü bildirirəm. Yay düşərgəsi çox yüksək səviyyədə keçirilir. Bizlər də təbiətin qoynunda uşaqlar üçün ustad dərsləri təşkil edirik. Gələcəkdə də belə tədbirlərdə iştirak etməyə hazırıq".

Hüseyn Hümbətov Goranboy rayonunun Qaradağlı kəndindən aşıq sənəti nominasiyası üzrə festivalda iştirak edir. M.Səfərov adına kənd tam orta məktəbin VIII, Gəncə şəhər Z.Qayıbov adına 5 nömrəli Uşaq musiqi məktəbinin isə V sinfində təhsil alır. Həftədə iki dəfə musiqi məktəbinə gələrək müəllimi İlqar Nəcəfoğludan aşıq sənətinin sirlərini öyrənir: "Aşıq sənəti bizlərə ulu babalarımızdan qalan bir mirasdır. Ulu babam bu sənətlə məşğul olub. Mən də də kiçik yaşlarımdan aşıq sənətinə maraq yaranıb. Ən böyük arzum aşıq sənəti üzrə ölkəmizi xaricdə layiqincə təmsil etməkdir".



Yusif Yusubov festivala Gəncə şəhərindən qatılıb. Gəncə şəhər 17 nömrəli tam orta məktəb və şəhər Uşaq rəssamlıq məktəbində təhsil alır. Birinci mərhələdə uğurla iştirak edərək region mərhələsinə vəsiqə qazanıb. Söyləyir ki, 4-5 yaşlarından rəssamlığa həvəs göstərib: "Ailəm həvəsimi görüb rəssamlıq məktəbinə getməyimi tövsiyə etdi. Hazırda məktəbin 3-cü sinfində oxuyuram. Ən böyük arzum gələcəkdə ölkənin tanınmış rəssamlarından biri olmaqdır".

Nərmin Nağıyeva isə Samux rayonundan rəssamlıq nominasiyası üzrə festivalda iştirak edir. Samux şəhər 3 nömrəli tam orta məktəbin XI sinfində təhsil alan Nərmin, həmçinin Gəncə şəhər Uşaq incəsənət məktəbində rəssamlığın sirlərini öyrənir: "Uşaqlara belə gözəl şərait yaratdıqları üçün təşkilatçılara minnətdarlığımı bildirirəm. Yəqin ki, yay düşərgəsində iştirakım həyatımın ən unudulmaz günlərindən biri kimi yaddaşımda əbədi qalacaq".

Düşərgə müddətində uşaqlar üçün maraqlı və əyləncəli oyunlar (futbol, voleybol, estafet oyunları və s.) keçirildi. Əməkdar artist, tarzən Səbuhi Cəfərov, Əməkdar mədəniyyət işçisi, aşıq Samirə Əliyeva, Əməkdar müəllim, xanəndə Qəzənfər Abbasov, rəssam Yusif Mirzə, qiraətçi Hüseynağa Aslanov və rəqqasə Tamilla Əliyeva tərəfindən ustad dərsləri təşkil edildi.

Günün sonunda isə düşərgə iştirakçıları birlikdə ocaq ətrafında toplaşıb müxtəlif təamlardan dadaraq rəqs edib mahnılar səsləndirdilər.

Qeyd edək ki, festival üç turdan ibarətdir. 21 nominasiyada üç yaş qrupu (6-9 yaş, 10-13 yaş və 14-17 yaş) üzrə reallaşan festivalın birinci mərhələsi aprel-iyun aylarını əhatə edib. II mərhələ iyul-avqust aylarında reallaşacaq. Final mərhələsinin sentyabr ayında Bakıda keçirilməsi nəzərdə tutulur.

**Nurəddin Məmmədli**

# "Duyğuların rəngi"



Göyçay şəhər Rəsul Rzanın Ev-Muzeyində iyulun 8-də gənc rəssamlar Rahim İbrahimov və Yunis Həmidovun əsərlərindən ibarət "Duyğuların rəngi" adlı sərgi təşkil olunub.

Muzeyin bələdçisi Gülnar Ağayeva rəssamları sərgi münasibətilə təbrik edib, yeni yaradıcılıq uğurları arzulayıb.

Rəssam, pedaqoq Ehtiram Kərimov gənclərin duyğularını ecazkar rənglərin köməyi ilə ağ kətan üzərinə həkk etməyə nail olduqlarını qeyd edib. Digər çıxış edənlər də sərgi ilə bağlı fikirlərini bildiriblər.

Rahim İbrahimov və Yunis Həmidov onlara yaradılan şəraitə görə muzeyin rəhbərliyinə təşəkkür ediblər.

Sonda qonaqlar sərgi ilə tanış olublar. Sərgi iyulun 15-dək davam edəcək.

# "Dillən, telli sazım"



Gəncə şəhər MKS-nin 19 saylı kitabxana filialı şair Bayraməli Xudiyevin (Xəstə Bayraməli; 1899-1952) yaradıcılığına həsr olunmuş "Dillən, telli sazım" adlı tədbir təşkil edib.

Çıxış edənlər şairin yazılı ədəbiyyatla şifahi xalq ədəbiyyatı arasında körpü saldığını, bədii nümunələrinin müğənnilər tərəfindən ifa olunduğunu bildiriblər. Qeyd olunub ki, şairin kitabları ölkəmizlə yanaşı, Türkiyə və İranda da nəşr edilib.

Daha sonra tədbir iştirakçıları tərəfindən şairin şeirləri, qəzəlləri səsləndirilib.

Sonda "Ozan-aşıq dünyası" adlı videoçarx nümayiş etdirilib.

# UİF-nin ikinci mərhələsi necə davam edir?

Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Mədəniyyət Nazirliyi, Elm və Təhsil Nazirliyi və Heydər Əliyev Mərkəzinin birgə təşkil etdiyi, "BP Azerbaijan" şirkətinin baş sponsorluğu ilə keçirilən Uşaq İncəsənət Festivalının ikinci – regional mərhələsi davam edir.






Mərkəzi Aran Regional Mədəniyyət İdarəsinin (RMİ) əhatə etdiyi Ağdaş, Göyçay, Kürdəmir, Ucar, Yevlax, Zərdab rayonları və Mingəçevir şəhəri üzrə iştirakçılar arasında keçirilən II mərhələ iki məntəqədə – Ağdaş şəhər Habil Əliyev adına



1 nömrəli Uşaq musiqi məktəbi və Ağdaş rayon Heydər Əliyev Mərkəzində reallaşıb.

3-4 iyul tarixlərində fortepiano ifaçılığı, akademik vokal, estrada oxuma, xor, aşıq sənəti və xanəndəlik nominasiyaları üzrə festivalın birinci mərhələsində uğurlu nəticə əldə etmiş iştirakçılar bacarıqlarını nümayiş etdiriblər.

5-6-7 iyul tarixlərində piano ifaçılığı, klassik simli alətlər ifaçılığı, solo milli rəqs, solo müasir rəqs, milli rəqs ansamblı, müasir rəqs ansamblı və bədii qiraət nominasiyaları üzrə bacarıqlarını göstəriblər.

***

Qarabağ RMİ-nin əhatə etdiyi rayonlar (Xankəndi şəhəri, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa və Tərtər rayonları) üzrə iştirakçılar arasında keçirilən II mərhələ iki məntəqədə – Ağcabədi rayon Y.Məmmədov adına Mədəniyyət Mərkəzi və rayon Ü.Hacıbəyli adına Qarabağ Muğam Mərkəzində təşkil olunub.

Festivalın bu mərhələsində iştirakçılar piano ifaçılığı, klassik simli alətlər ifaçılığı, xalq çalğı alətləri ifaçılığı və s. nominasiyalar üzrə öz istedad və bacarıqlarını ortaya qoyublar.

***



Şirvan-Salyan RMİ-nin əhatə etdiyi Biləsuvar, Salyan, Neftçala, Hacıqabul rayonları və Şirvan şəhəri üzrə iştirakçılar arasında keçirilən II mərhələ Salyan Dövlət Kukla Teatrında reallaşıb.

Festivalın II mərhələsinin iştirakçıları artıq piano ifaçılığı, klassik simli alətlər ifaçılığı, xalq çalğı alətləri ifaçılığı, akademik vokal, estrada oxuma, həmçinin xanəndəlik sənəti və aşıq sənəti nominasiyaları üzrə mübarizə aparıblar.

İştirakçılar növbəti həftədə solo milli rəqs, milli rəqs ansamblı, aktyorluq, bədii qiraət, dekorativ-tətbiqi sənət və rəssamlıq nominasiyaları üzrə mübarizəyə qatılacaqlar.

Bu şəhər və rayonlardan festivalın II mərhələsinə ümumilikdə 206 nəfər vəsiqə qazanıb.

***

Qazax-Tovuz RMİ-nin əhatə etdiyi Ağstafa, Gədəbəy, Qazax, Şəmkir və Tovuz rayonları üzrə iştirakçılar arasında keçirilən II mərhələ Tovuz rayon N.Gəncəvi adına Mədəniyyət evi və rayon Azərbaycan Aşıq Sənəti Dövlət Muzeyində təşkil olunub.

3-4 iyul tarixlərində 105 nəfər iştirakçı piano ifaçılığı, dekorativ-tətbiqi sənət, rəssamlıq, bədii qiraət nominasiyaları üzrə mübarizə aparıblar.

Qeyd edək ki, festivalın iyulun 3-də başlanan regional mərhələsi ölkəmizin 14 iqtisadi-coğrafi rayonunun 14 şəhəri üzrə 26 məntəqədə keçirilir.

**Hazırladı: N.Məmmədli**

# Şəkidə "Şəhər günü" qeyd olunub

Xəbər verdiyimiz kimi, 3-7 iyul tarixlərində Mədəniyyət Nazirliyi, Azərbaycan Bəstəkarlar İttifaqı və Şəki Şəhər İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Şəki "İpək Yolu" XII Beynəlxalq Musiqi Festivalı keçirilib.

Festival çərçivəsində iyulun 7-də Şəkidə "Şəhər günü" bayram tədbiri təşkil edilib.

Bayram tədbirinin açılış mərasimi səhər saatlarında Şəki şəhərindəki Bəxtiyar Vahabzadə adına parkın qarşısındakı meydanda keçirilib.

İcra Hakimiyyətinin başçısı Elxan Usubov qeyd edib ki, Vətən müharibəsində şanlı Qələbədən sonra ölkəmizdə bütün əlamətdar tədbirlər kimi, Şəkidə "Şəhər günü" də ikiqat sevinc hissi ilə qeyd olunur.

Diqqətə çatdırılıb ki, 2019-cu il iyulun 7-də Bakıda keçirilən UNESCO-nun Dünya İrs Komitəsinin 43-cü sessiyasında Şəkinin tarixi mərkəzi Dünya İrsi Siyahısına daxil edilib. 2021-ci il iyulun 7-də bununla bağlı təşkilatın sertifikatı şəhər rəhbərliyinə təqdim olunub. Həmin tədbirdə hər il iyulun 7-nin Şəkidə "Şəhər günü" kimi qeyd olunması qərara alınıb.

Dövlət Turizm Agentliyinin rəsmisi Murad Ağabəyli Şəkidə mədəni-tarixi irsin qorunub




saxlanılmasına diqqət göstərildiyini vurğulayıb, şəhər sakinlərini əlamətdar gün münasibətilə təbrik edib.

Bədii hissədə Azərbaycanın və Özbəkistanın Xalq artisti Gülyanaq Məmmədova, F.Əmirov adına Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblı, Türkiyənin Safranbolu Bələdiyyəsinin xalq oyunları qrupu çıxış edib.

Sonda şəhər rəhbərliyi tərəfindən ifaçı və kollektivlərə, həmçinin festival münasibətilə təşkil olunan idman yarışlarının qaliblərinə hədiyyələr və mükafatlar təqdim edilib.

# Xalq yaradıcılığı sərvətimizdir



Beyləqan rayon Mədəniyyət Mərkəzinin təşkilatçılığı və digər mədəniyyət müəssisələrinin dəstəyi ilə "Xalq yaradıcılığı milli sərvətimiz" adlı tədbir keçirilib.

İlk olaraq tədbir iştirakçıları xalq yaradıcılığı nümunələrindən ibarət sərgiyə baxıblar.

Tədbirdə çıxış edənlər xalq yaradıcılığı nümunələri haqqında söz açıb, ölkəmizdə folklorun toplanılması, nəşri və təbliğatı istiqamətində görülən işlər barədə məlumat veriblər.

Sonda rayon Mədəniyyət Mərkəzinin xalq yaradıcılığı nümunələri əsasında hazırladığı konsert proqramı təqdim olunub.

# Qaxda yerli sənətkarlarla görüş

Qax rayon Qum kənd kitabxanasında "Qədim el peşələri" başlığı altında sənət ustaları ilə görüş təşkil edilib.




Qeyd olunub ki, hər bir xalqın tarixi yaratdığı sənətkarlıq nümunələrində öz əksini tapır. Sadə əl əməyinə əsaslanan əşyalar, məişət avadanlıqları qədim dövrlərdən xəbər verən maddi mədəniyyət nümunələrinə çevrilib.

Çıxış edən tətbiqi sənət ustaları məşğul olduqları sahələr haqqında danışıb, işin çətinliyi və məsuliyyəti haqqında söz açıblar. Ustalar həmçinin unudulmaqda olan sənətə marağın artırılması ilə bağlı öz təkliflərini dilə gətiriblər.

# Qusar teatrı: mövsüm bitir, yeni mövsümə hazırlıq gedir



Qusar Dövlət Dram Teatrında yeni səhnə əsəri üzərində məşqlər yekunlaşıb. Məişət mövzulu tamaşa Məcid Şamxalovun əsəri əsasında hazırlanan "Pərixanım" tamaşasının quruluşçu rejissoru Bağır Əhmədov, quruluşçu rəssamı Bədəl Bədəlov, musiqi tərtibatçısı Şaiq Qardaşovdur.

Rolları Sədaqət Əlimuradova, Emma Xeyirbəyova, Lalə Qurbanova, Yalçın Qaraxanov, Malik Ramazanov, Samir Babayev, Yuriy Kərimov, Diana Cəfərova, Həsrət Nəsrullayev və Mirzə Salmanov ifa edirlər.

Cəmiyyətdə dedi-qodunun insan taleyinə vurduğu zərbələri bir gənc qızın timsalında təqdim edən səhnə əsəri yeni mövsümdə tamaşaçılara təqdim olunacaq.

Qusarlı teatr təmsilçiləri cari mövsümünün bağlanışını da tamaşaçılar üçün yaddaqalan etməyə çalışırlar. Mövsümün bağlanışını səhnədə deyil, şəhər meydanında edəcəklər. İyunun 18-də burada mədəni-kütləvi tədbir keçiriləcək və "Hekayəti xırs-quldurbasan" (M.F.Axundzadə) tamaşası nümayiş olunacaq.

# Bütün tamaşaçılar üçün...

Mingəçevir Dövlət Dram Teatrı cari mövsümünü "Mövsümün bağlanış həftəsi" adı altında bir neçə səhnə işini yekunlaşdırır.



Həftənin ilk tamaşası iyulun 10-da premyerası reallaşan "Yaddaş, təqvim və kukla" (Elçin Məhərrəmli) ilə olub. Səhnə əsəri həyatı boyu insanlara pislik etmiş bank müdirinin yaddaş xəstəliyinə düçar olmasından və qarşılaşdığı uğursuzluqlardan bəhs edir.

Tamaşaya teatrın baş rejissoru Vüsal Mehrəliyev quruluş verib, quruluşçu rəssam Pakizə Adilbəyli, musiqi tərtibatçısı Elnur Rəsulovdur. Rolları Afiq Yusifov, Hüseyn Mustafayev, Vüsalə Quliyeva, Aydın Quliyev, Ceyhun Yusif, Nargilə Abdullayeva, Vəfa İsmayılova, Afət Əliyeva və b. ifa edirlər.

Balaca teatrsevərləri də unutmayan Mingəçevir teatrının təmsilçiləri iyulun 11-də "Odunçunun nağılı" adlı kukla tamaşasını onların ixtiyarına veriblər.

İyulun 12-də isə S.S.Axundovun "Tamahkar" əsəri əsasında hazırlanan eyniadlı səhnə nümunəsinin premyerası olacaq.

# Mədəniyyət naziri Azərbaycan Dövlət Pantomima Teatrında olub

Mədəniyyət naziri Adil Kərimli və nazirliyin məsul nümayəndələri iyulun 8-də Azərbaycan Dövlət Pantomima Teatrında olublar.

Nazirliyin heyətinə teatrın tarixi, fəaliyyəti, yaradıcılıq nailiyyətləri, o cümlədən beynəlxalq festivallarda Azərbaycan teatr sənətini uğurla təmsil etməsi barədə məlumat verilib.

Adil Kərimli Dövlət Pantomima Teatrının binası, truppası, repertuarı, kollektivin yaradıcılıq şəraiti ilə tanış olub.

Sonra nazirliyin kollektivi teatrın repertuarından iki nümunəyə tamaşa edib.





Teatrın artistlərinin ifasında Xalq artisti, Dövlət Pantomima Teatrının yaradıcısı Bəxtiyar Xanızadənin quruluş verdiyi "Pantomim buketi" və Bəhruz Əhmədlinin quruluşunda A.Çexovun "6 nömrəli palata" əsəri əsasında hazırlanan "6+1 palata" tamaşaları nümayiş olunub.

Teatrın ilk yaradıcılıq nümunələrindən olan "Pantomim buketi" 1994-cü ildə hazırlanıb. İntermediya nömrələrindən ibarət tamaşa 2022-ci ildə yenilənmiş aktyor heyəti ilə bərpa edilib.

Böyük rus yazıçısı Anton Çexovun məşhur hekayəsinin motivləri əsasında səhnələşdirilən "6+1 palata" tamaşası isə ağıllı insanın yalqızlığının pantomim ifadəsidir.

Hər iki səhnə əsəri maraqla qarşılanıb. Nazir Pantomima Teatrının kollektivinə yeni yaradıcılıq uğurları arzulayıb.

# "İpək Yolu"nda növbəti görüşədək...

## Beynəlxalq musiqi festivalı başa çatıb

Mədəniyyət Nazirliyi, Azərbaycan Bəstəkarlar İttifaqı və Şəki Şəhər İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə 3-7 iyul tarixlərində keçirilən Şəki "İpək Yolu" XII Beynəlxalq Musiqi Festivalı başa çatıb.




Beş gün davam edən festival çərçivəsində musiqisevərlər, şəhərin qonaqları, yerli sakinlər Türkiyə, Çin, Özbəkistan və Qazaxıstandan gəlmiş mahnı və rəqs ansambllarının, həmçinin Azərbaycanın musiqi kollektivlərinin, Opera və Balet Teatrı heyətinin çıxışlarını izləyiblər.

İyulun 7-də axşam "Marxal" kompleksinin Yay teatrında festivalın bağlanış mərasimi olub. Mərasimdə Fikrət Əmirov adına Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblı çıxış edib.

Konsertin əvvəlində məlumat verilib ki, Dövlət Mahnı və Rəqs Ansamblı 1938-ci ildə Azərbaycan klassik musiqisinin banisi Üzeyir Hacıbəyli tərəfindən yaradılıb. Müxtəlif dövrlərdə kollektivə Səid Rüstəmov, Cahangir Cahangirov, Vasif Adıgözəlov, Hacı Xanməmmədov, Telman Hacıyev və Ramiz Mirişli kimi görkəmli bəstəkarlar rəhbərlik edib. Ansamblın xoreoqrafiya qrupunda Əminə Dilbazi, Tutu Həmidova, Böyükağa Məmmədov, Roza Cəlilova, Aliyə Ramazanova, Afaq Məlikova, Kamil Dadaşov, Əlikram Aslanov, Nadir Məmmədov və başqa rəqs ustaları yetişib. Ansamblın repertuarını Azərbaycan və dünya xalqlarının mahnı və rəqsləri, xor əsərləri təşkil edir. 2000-ci ildən ansamblın nəzdində Azərbaycan Dövlət Xalq Çalğı Alətləri Orkestri fəaliyyət göstərir. Mahnı və Rəqs Ansamblının bədii rəhbəri və dirijoru Xalq artisti Ağaverdi Paşayevdir.

Konsert Vasif Adıgözəlovun "Vətən süitası" ilə başlayıb. Xalq artisti Gülyaz Məmmədovanın, Əməkdar artist Ehtiram Hüseynovun, solistlər Sərxan Bünyadzadə, Vəfa Vəzirova, Samir Piriyev, Taleh Yahyayev və Nurlana Abdullayevanın, kamança ifaçısı Əməkdar artist Xəyyam Məmmədovun ifasında bəstəkar və xalq mahnıları, eləcə də rəqqasların şux və oynaq ifaları tamaşaçılar tərəfindən böyük rəğbətlə qarşılanıb.

Konsert sona çatdıqdan sonra Şəki Şəhər İcra Hakimiyyətinin başçısı Elxan Usubov çıxış edərək, Şəki "İpək Yolu" XII Beynəlxalq Musiqi Festivalının keçirilməsində əməyi olan bütün qurumlara, xüsusilə festivalın bədii rəhbəri, Azərbaycan Bəstəkarlar İttifaqının sədri Xalq artisti Firəngiz Əlizadəyə minnətdarlığını bildirib.

Mahnı və Rəqs Ansamblının bədii rəhbəri və dirijoru Ağaverdi Paşayevə festivalın simvolik hədiyyəsi təqdim edilib.

Azərbaycanın TÜRKSOY-dakı təmsilçisi Elçin Qafarlı tərəfindən festivalın təşkilatçı qurumlarının rəsmilərinə və ansamblın rəhbərinə təşkilatın 30 illiyi münasibətilə xatirə hədiyyələri təqdim olunub.

# Ölkəmiz Dünya Memarlar Konqresində təmsil olunub




2-6 iyul tarixlərində Danimarkanın paytaxtı Kopenhagendə Beynəlxalq Memarlar İttifaqının (BMİ) təşkilatçılığı ilə Dünya Memarlar Konqresi keçirilib.

"Dayanıqlı gələcək: heç kəsi geridə qoymayın" mövzusuna həsr olunan tədbirə 100-dən çox ölkədən nümayəndələr qatılıb.

Konqresdə ölkəmizdən Azərbaycan Memarlar İttifaqının sədri professor Elbay Qasımzadə, Azərbaycan Memarlıq və İnşaat Universitetinin (AzMİU) rektoru professor Gülçöhrə Məmmədova, İtaliya-Azərbaycan Dizayn Mərkəzinin direktoru Fərid Kərimov və başqaları iştirak ediblər.

Məşhur memarlar, yeni istedadlar, elm adamları ilə yanaşı, transmilli şirkətlərin rəhbərləri və nüfuzlu siyasətçilərin iştirak etdiyi konqresdə 400-dən çox məruzə dinlənilib. Məruzələr əsasən iqlim dəyişikliyi ilə mübarizə, biomüxtəlifliyi artırmaq və sosial inklüzivliyin təşviqi üçün yeni dizayn yollarının axtarılması məsələlərini əhatə edib.

Konqres "Kopenhagen dərsləri" adı altında sürətli və köklü dəyişiklik üçün 10 prinsipin təqdim edilməsi ilə başa çatıb.

# "Yuğ" "Mənəm, mən..."lə mövsümə yekun vurub



Azərbaycan Dövlət Yuğ Teatrında mövsümə iyulun 9-da "Mənəm, mən..." tamaşası ilə yekun vurulub.

İlqar Fəhminin əsəri əsasında 2019-cu ildə, mütəfəkkir şair İmadəddin Nəsiminin 650 illiyi münasibətilə hazırlanan tamaşaya Əməkdar incəsənət xadimi Mehriban Ələkbərzadə quruluş verib.

Azərbaycan Dövlət Yuğ Teatrı və Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun birgə layihəsi əsasında hazırlanan tamaşanın janrı mistik-psixoloji dram kimi təyin edilib. Səhnə əsərində Xalq artisti Məmmədsəfa Qasımov, Əməkdar artist Qasım Nağı, aktyorlar Ziya Ağa, Əbdülqəni Əliyev, Amid Qasımov, Vüqar Hacıyev, Elgün Həmidov və Elşən Əsgərov çıxış ediblər.

# Vladivostok teatrının Bakı qastrolu başa çatıb

Xəbər verdiyimiz kimi, Rusiyanın Vladivostok şəhərində fəaliyyət göstərən Maksim Qorki adına Primorsk Akademik Vilayət Dram Teatrı 1-9 iyul tarixlərində Bakıda qastrol səfərində oldu.



Qastrol səfəri "Heydər Əliyev İli" çərçivəsində və Azərbaycan peşəkar milli teatrının 150 illiyi münasibətilə Rusiya Federasiyası Primorsk Vilayəti Hökuməti və Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin dəstəyi ilə reallaşdı. Qonaq teatrın tamaşaları Səməd Vurğun adına Azərbaycan Dövlət Akademik Rus Dram Teatrının səhnəsində nümayiş olunurdu.

Qastrol Mixail Bulqakovun məşhur romanı əsasında iki il əvvəl, teatrın 88-ci mövsümündə səhnəyə qoyulmuş "Master və Marqarita" tamaşası ilə (1-2 iyul) başladı. Tamaşaçıların diqqət və marağı nəzərə alınaraq bu səhnə əsəri 4 iyulda təkrar nümayiş olundu. Bundan əlavə, ispan dramaturqu Lopa de Veqanın "Nə yardan doyur, nə əldən qoyur" komediyası da proqramdan fərqli olaraq, iki dəfə – iyulun 5-də və 8-də təqdim edildi.

6-7 iyulda isə tamaşaçılar əfsanəvi fransız müğənni Edit Piafın həyatından bəhs edən "Edit və onun şeytanları" musiqili-mistik melodramını izlədilər. Vadim Danzigerin quruluş verdiyi səhnə əsəri müğənninin həyatındakı son məhəbbətdən bəhs edən parlaq emosional tamaşadır. Baş rolun ifaçısı Natalya Ovçinnikova Edif Piaf obrazını ustalıqla yaradıb. Əvvəlki tamaşalarda baş qəhrəmanların obrazlarını heyrətamiz şəkildə təcəssüm etdirən aktrisa bu dəfə də diqqət çəkib. Aktrisa özünü tamamilə tamaşanın aurasına qərq edərək Piafın xarakterik yerişi, jestləri və özünəməxsus təbəssümü, ağır xarakteri və emosionallığını nümayiş etdirə bilib. N.Ovçinnikova heyrətamiz emosional ifası ilə bərabər, həm də Edit Piafın mahnılarını fransız dilində canlı oxuyub. Bu rol üçün o, Edit Piafa xas olan unikal tembr və tonları tapmaq prosesində müxtəlif üsullardan istifadə edən vokal müəllimi ilə xüsusi məşq də edib. Tamaşa sənətsevərlər tərəfindən rəğbətlə qarşılanıb.

Qeyd edək ki, Vladivostok teatrının (bədii rəhbər Xalq artisti, "Qızıl maska" mükafatı laureatı Yefim Zvenyatski) Bakı qastrolu yaradıcı kollektivin Rusiyadan kənarda ən irimiqyaslı qastrol səfəri hesab olunur. Səfər iyulun 9-da rus yazıçısı Valentin Pikulun "Kreyserlər" tarixi romanı əsasında hazırlanmış eyniadlı tamaşa ilə başa çatıb.

**Lalə**

"Heydər Əliyev İli"

# Mədəniyyətimizin böyük hamisi



Ümummilli lider Heydər Əliyev böyük siyasətdə olduğu bir qərinədən artıq dövrdə, doğma xalqının taleyində tarixi rol oynamaqla bərabər, mədəni irsimizin qorunması və zənginləşdirilməsi, milli incəsənətin, ədəbiyyatın inkişafı, respublikada mədəni-maarif işinin qabaqcıl səviyyədə təşkili sahəsində də müstəsna xidmətlər göstərib.

Heydər Əliyevin mədəniyyətə diqqət və qayğısı onun dövlət xadimi kimi fəaliyyətinin bütün mərhələlərində – sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə, Moskvada, SSRİ rəhbərliyində çalışdığı vaxtda və müstəqil Azərbaycana onillik prezidentliyi dövründə tarixin yaddaşına çoxsaylı səhifələrlə yazılıb. O, hər zaman və hər yerdə Azərbaycan mədəniyyətinin böyük hamisi olub. Bununla bağlı illərin xronikasından seçdiyimiz məqamları "Heydər Əliyev İli"nə töhfə olaraq diqqətinizə təqdim edirik...

## İllərin xronikasından (46)

### 1994-cü il 1 iyun

Prezident Heydər Əliyev Beynəlxalq Uşaqları Müdafiə Günü münasibətilə Bakının Nizami rayonundakı 1 nömrəli uşaq evində olub. Həmçinin Bakı Xoreoqrafiya Məktəbinin müəllim və şagird kollektivi ilə görüşüb.

***

Heydər Əliyev bəstəkar, Əməkdar incəsənət xadimi Şəfiqə Axundovanı 70 illik yubileyi münasibətilə təbrik edib. *"Sizin qoca Şərqdə opera yazan ilk qadın bəstəkar kimi tanınmağınız xalqımız üçün böyük fəxrdir. Əminəm ki, qəlblərə yol açan əzəmətli və ecazkar musiqiniz gənclərin mənəvi dünyasına saflıq və aydınlıq, əzəmət və qüdrət bəxş edəcək, xalqımızın mübarizə əzmini, qurub-yaratmaq eşqini daha da qüvvətləndirəcəkdir",* – deyə təbrik məktubunda bildirilirdi.

### 1994-cü il 4 iyun

Prezident Heydər Əliyev Azərbaycan ədəbiyyatının inkişafında böyük xidmətlərinə görə Xalq yazıçısı İsmayıl Şıxlının "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında fərman imzalayıb.

Heydər Əliyev İsmayıl Şıxlını 75 illik yubileyi münasibətilə təbrik edib. Təbrik məktubundan sitat: *"Azərbaycan xalqının böyük bir nəslinin layiqli övlad, əsl vətəndaş və hərtərəfli şəxsiyyət kimi yetişməsində sizin əməyiniz böyükdür. Siz istedadlı yazıcı, müdrik və mahir pedaqoq, mübariz vətəndaş kimi xalqın qəlbində əbədi məskən salmısınız".*

### 1994-cü il 23 iyun

Azərbaycan Dövlət Filarmoniyasında Xalq şairi Xəlil Rza Ulutürklə (22 iyunda dünyasını dəyişmişdi) vida mərasimi keçirilib. Prezident Heydər Əliyev mərasimdə çıxış edib.

*"XX əsrdə Azərbaycanın görkəmli simalarından biri – şair, yazıçı, filosof, alim, xalq azadlığı uğrunda fədakar mübariz, böyük vətəndaş Xəlil Rzanı itirmişik. Bu, böyük itkidir... Xəlil Rza xalqımıza böyük ədəbi irs qoymuş, mədəniyyətimizi, ədəbiyyatımızı zənginləşdirmişdir. Xəlil Rza Azərbaycan xalqının milli azadlıq uğrunda mübarizəsinin ön cərgələrində getmiş, bu mübarizəyə qalxmış gənclərimizə həm alim, həm şair kimi, həm də hörmətli bir insan kimi örnək olmuşdur... Mən daim onun yaradıcılığına, insanlığına, vətəndaşlığına, ən çox da cəsurluğuna, öz ideyalarından dönməzliyinə hörmət etmişəm, onu yüksək qiymətləndirmişəm. Ona görə də bu itki bütün Azərbaycan xalqı kimi, mənim üçün də böyük bir itkidir... Xəlil Rzanın parlaq həyatı, onun böyük vətəndaşlığı, milli azadlıq uğrunda mübarizliyi bütün azərbaycanlılar üçün nümunə olacaqdır...".*

### 1994-cü il 26 iyun

Prezident Heydər Əliyev yazıçı Hüseyn İbrahimova 75 illiyi münasibətilə təbrik məktubu göndərib.

### 1994-cü il 18 iyul

Prezident Heydər Əliyev Azərbaycan incəsənət ustalarının konsertində olub.

### 1994-cü il 1 avqust

Prezident Sarayında Məhəmməd Füzulinin 500 illik yubileyi ilə əlaqədar Dövlət Komissiyasının iclası keçirilib. Komissiyanın sədri, Prezident Heydər Əliyev iclasda geniş nitq söyləyib.

*"...Respublikamızın bu ağır dövründə böyük yubileylər keçirilməsi, şübhəsiz ki, müəyyən qədər çətinliklərlə üzləşəcək. Çətinliklər nə qədər çox olsa da mədəniyyətə, mədəni irsimizə, mənəviyyata daim xüsusi diqqət yetirməli və bu sahələrin geri qalmasına yol verməməliyik.*

*Dahi Füzulinin 500 illik yubileyinin keçirilməsi böyük mütəfəkkir şairin Azərbaycan xalqı qarşısında və bütün türk xalqları, dünya mədəniyyəti qarşısındakı xidmətlərinə verilən qiymətdir. Bu eyni zamanda həm də mədəniyyətimizi, tariximizi təbliğ etmək üçün çox əlverişli fürsətdir və biz bundan hərtərəfli istifadə etməliyik...*

*Məhəmməd Füzuli kimi şəxsiyyəti olan xalq fəxr edə bilər. Lakin dünya birliyində, dünya xalqları arasında onun tarixini, mədəniyyətini, milli ənənələrini təbliğ etmək, yaymaq, sübut etmək üçün belə yubileylər həmişə böyük bir vasitədir. Ona görə də, çətinliklərimizə baxmayaraq, bu yubileyi gərək yüksək səviyyədə keçirək. Əvvəla, Füzuli özünün yaradıcılığına, ədəbi, elmi və fəlsəfi irsinə görə buna layiqdir və Azərbaycan xalqının bugünkü, XX əsrin sonunda yaşayan nəsli ona öz minnətdarlığını bildirməlidir. İkincisi, bu yubileyi keçirərkən biz xalqımızın özünü daha dərindən tanımasını təmin edəcəyik və etməliyik. Xalq gərək daim öz kökünü xatırlasın, tarixini öyrənsin, milli mədəniyyətindən, elmindən heç vaxt ayrılmasın. Şübhəsiz ki, bu yubileyin keçirilməsi indiki nəslin, xüsusən gənclərin tariximizin nə qədər zəngin olduğunu və Azərbaycan xalqının dünya mədəniyyətinə necə töhfələr verdiyini bir daha dərk etməsinə şərait yaradacaq və hər bir azərbaycanlıda, ilk növbədə gənc nəsildə milli iftixar, vətənpərvərlik hissini daha da yüksəldəcəkdir. Bunun özü müstəqil Azərbaycanda bizim üçün çox gərəkli bir amildir.*

*UNESCO Məhəmməd Füzulinin 500 illiyi ilə əlaqədar qərar qəbul etmişdir. Bildiyiniz kimi, UNESCO hər il bu qəbildən olan qərarlar qəbul edir. Lakin bu imkandan necə istifadə etmək, şübhəsiz ki, hər bir ölkənin, xalqın özündən asılıdır. Ona görə də biz gərək yubileylə əlaqədar respublikamızdan kənarda keçirilən tədbirlərə xüsusi əhəmiyyət verək. Türkdilli ölkələrdə Füzulinin yubileyinin keçirilməsi də bu tədbirlər sırasına daxildir.*

*Yubiley təntənələrində Füzulini dünya miqyasında nə qədər geniş təbliğ edə bilsək, şübhəsiz ki, xalqımızı, onun tarixini, mədəniyyətini, mənəviyyatını bir o qədər çox tanıda, təbliğ edə biləcəyik. Bu bizdən ötrü indi çox vacibdir. Respublikamızı təkcə zəngin təbii sərvətlərə malik ölkə kimi yox, zəngin tarixi, mədəniyyəti olan ölkə kimi tanıtmalıyıq...".*

**Hazırladı: V.Orxan**

*(davamı var)*

# Heydər Əliyevin reallaşan arzusu...

## Qədim İpək Yolundan TRACECA-ya: Azərbaycan Şərqlə Qərbin, Şimalla Cənubun qovşağında




O, dəmiryolçu əməyinin ağırlığını bilirdi, bu sahədə çalışanların necə zəhmətə qatlaşdıqlarını uşaqlıqdan görmüşdü. "Atam Naxçıvanda dəmir yolunda fəhlə işləyirdi... Gecə-gündüz çalışırdı..." – Heydər Əliyev 1993-cü ildə müsahibələrinin birində o illəri xatırlayaraq demişdi.

O, polad magistralların ölkə iqtisadiyyatı üçün önəminə də dərindən bələd idi. Respublikaya birinci rəhbərliyi dövründə bu sahəyə xüsusi diqqət ayırmışdı. 80-ci illərdə SSRİ rəhbərliyində olarkən nəqliyyat onun kurasiyasında idi və dövrün nəhəng layihəsinə – Baykal-Amur magistralına az əmək verməmişdi. Bir neçə ildən sonra Azərbaycanın rəhbərliyinə qayıdanda vaxtilə qurub-yaratdığı bu sahənin səriştəsizlik üzündən necə tənəzzül etdiyini görmək çox ağır idi. Dağılanları yenidən qurmaq zaman tələb edirdi.

"Biz Azərbaycanda dəmir yolunu on illərlə yaratmışıq, onun maddi-texniki bazasını qurmuşuq. Təəssüflər olsun ki, 1990-cı ildən başlayaraq Azərbaycan Dövlət Dəmir Yolunda da çox şeylər dağılıbdır. Mən indi dəmir yolunda inkişafı hiss edirəm. Bu, çox vacib məsələdir. Çünki dəmir yolu Azərbaycan iqtisadiyyatının böyük bir hissəsidir" – Heydər Əliyev 1998-ci ilin yanvarında Dübəndi terminalının açılış mərasimində demişdi.

Həmin dövrdə Azərbaycan dəmir yolları artıq dünyaya açılmağa, Avropa-Asiya nəqliyyat dəhlizi ideyası reallaşmağa başlamışdı. Bu dəhlizdə səmərəli fəaliyyət göstərən dəmir yolu şəbəkəsinin olması Heydər Əliyev üçün həm də gənclik illərinin xatirəsi ilə bağlı bir arzu idi. Ötən əsrin 40-cı illərinə qədər Bakıdan Naxçıvana birbaşa dəmir yolu əlaqəsi yox idi. Çar dövründən qalan Naxçıvan-İrəvan-Tiflis-Bakı yolu ilə gəlib-getmək üçün üç gün sürürdü.

"O vaxtlar biz əsrin əvvəllərində Bakıdan Tbilisi və Yerevan vasitəsilə Naxçıvana, oradan da Culfaya, İran sərhədinədək çəkilmiş dəmir yolu ilə qatarda üç gün səyahət etməli olurduq. Naxçıvandan Bakıya əvvəlcə atamla, sonralar tək gedirdim. Tbilisidə Naxçıvan-Tbilisi qatarından düşüb Tbilisi-Bakı qatarına minmək lazım gəlirdi. Bu qatarların hərəkəti arasında 12 saat vaxt fərqi vardı..." – Heydər Əliyev bu xatirələrini 2000-ci ilin martında Gürcüstana səfəri zamanı danışmışdı.

1936-cı ildə Bakıdan Zəngilan rayonuna, Ermənistanla sərhədə qədər dəmir yolunun istifadəyə verilməsi, 1941-ci ildə isə Mincivan-Culfa polad magistralının (Ermənistanın Mehri rayonu ərazisi ilə) çəkilməsi ilə həm Naxçıvanın Bakı qatar əlaqəsi yaranmış, həm də Cənubi Qafqazın üç respublikasının dəmir yolu şəbəkələri birləşmişdi. Azərbaycan özünün imkanları (o cümlədən Xəzərin şərq sahilinə bərə əlaqəsi) ilə regionun nəqliyyat qovşağına çevrilmişdi. SSRİ-nin süqutu ilə mövcud əlaqələr qırıldı, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü ilə iki ölkə arasındakı dəmir yolları da bağlandı.

Bununla belə, dövlət müstəqilliyi Azərbaycana keçmiş SSRİ coğrafiyasından kənarda daha geniş nəqliyyat əlaqələri üçün potensial imkanlar yaratdı. Bunu realizə etmək üçün isə ölkəyə gerçək lider lazım idi. Ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı Azərbaycanın dünyaya inteqrasiyasına, regional və beynəlxalq miqyasda özünə layiqli yer qazanmasına da yollar açdı. Ölkəni davamlı inkişaf relsinə çıxarmağın mühüm bir vasitəsi onu polad relslər üzərində dünyaya (dünyanı da Azərbaycana) bağlamaq idi.

Bu əlaqələrin qurulmasında kənar oyunçular da maraqlı idi. Avropa İttifaqı 1991-ci ilin sonunda dağılan SSRİ-nin qalıqları üzərində yaranan Müstəqil Dövlətlər Birliyinə texniki yardım (Technical Assistance for the Commonwealth of Independent States) – TACIS proqramını elan etmişdi. 1993-cü ilin mayında TACIS proqramına cəlb olunan Qafqaz və Mərkəzi Asiya ölkələri üçün regional logistika – Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi (Transport Corridor Europe-Caucasus-Asia, TRACECA) proqramı qəbul edildi.

Amma proqramın bəyanı ilə iş bitmirdi. Bu işdə fəal təşəbbüskarlığa, təşviqatçılığa və təşkilatçılığa ehtiyac vardı. Heydər Əliyev bu mühüm missiyanı öz üzərinə götürdü və Azərbaycan tarixi İpək Yolunun bərpasının lokomotiv ölkəsi oldu. Heydər Əliyevin 1996-1997-ci illərdə Avropadan Yaponiyayadək bir sıra ölkələrə səfərlərində gündəmə gətirilən əsas mövzulardan biri TRACECA proqramı idi. "Ancaq bu proqramın belə böyük gələcəyə malik olduğu hələ hamı tərəfindən o qədər də dərk edilmirdi. Nəhayət, 1996-cı ildə, xüsusən 1997-ci ildə qədim İpək Yolunun bərpa olunması məsələsi qlobal bir məsələ kimi meydana çıxdı", – deyə o sonralar bu barədə danışarkən bildirmişdi.

### "Böyük Karlın planlarını həyata keçiririk..."

Azərbaycan Prezidenti bu ideyanın reallaşması üçün qonşu Gürcüstanın, eləcə də Xəzərin o tayındakı ölkələrin rəhbərləri ilə də sıx dialoq qurdu. İlk addımlardan biri 1996-cı ilin mayında Türkmənistanın Sərəxs şəhərində Azərbaycan, Gürcüstan, Türkmənistan və Özbəkistan dövlət başçıları tərəfindən tranzit daşımaların tənzimlənməsi sahəsində əməkdaşlıq haqqında saziş və dəmir yolu nəqliyyatının fəaliyyətinin əlaqələndirilməsinə dair müqavilənin imzalanması oldu.

Yeri gəlmişkən, bu razılaşma qısa müddətdə praktik nəticələr vermişdi. 1996-cı ilin iyulunda Heydər Əliyev Almaniyaya səfəri zamanı sözügedən nəqliyyat yolu ilə Özbəkistanın Avropaya 10 min ton pambıq mahlıcı göndərdiyini və oradan 30 min tondan çox taxıl gətirdiyini diqqətə çatdırmışdı. Bu faktı maraqla qarşılayan AFR Prezidenti Roman Hersoq bildirmişdi ki, bilirsiniz, bir vaxtlar Böyük Karl (IX əsrdə indiki Almaniya, Fransa, İtaliya da daxil Avropanın böyük hissəsində imperiya qurmuş hökmdar – V.Ə.) da İpək Yolu barədə düşünmüşdü. Heydər Əliyev də zarafatla cavab vermişdi ki, Böyük Karl çox ağıllı adam olub, o vaxtlar bu barədə fikirləşib. İndi biz Böyük Karlın planlarını həyata keçiririk.

Heydər Əliyevin fəal diplomatik səyləri Avrasiya coğrafiyasında İpək Yolunun bərpası ideyasının tərəfdarlarının sayını qat-qat artırdı. Hətta onun Yaponiyaya səfərindən (1997) sonra bu ölkənin hökuməti İpək Yolu ilə bağlı konsepsiyasını bəyan etdi.

### Azərbaycan Şərqlə Qərbi birləşdirir

Nəhayət, 1998-ci ilin 7-8 sentyabrında Bakıda tarixi toplantı – TRACECA layihəsi üzrə beynəlxalq konfrans keçirildi. Konfransda Avropa və Asiyanın 32 ölkəsinin nümayəndələri, o cümlədən 9 ölkənin (Azərbaycan, Türkiyə, Gürcüstan, Ukrayna, Moldova, Rumıniya, Bolqarıstan, Özbəkistan, Qırğızıstan) prezidentləri, 4 hökumət başçısı, 13 beynəlxalq təşkilatın təmsilçiləri iştirak edirdi. Müqayisə üçün deyək ki, beş il öncə TRACECA-nın Brüsseldəki ilk toplantısında cəmi 8 ölkə təmsil olunmuşdu. Konfransda "Avropa-Qafqaz-Asiya dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında Əsas Çoxtərəfli Saziş" və Bakı Bəyannaməsi imzalandı.



"Bu, bizim üçün tarixi hadisədir, eyni zamanda Azərbaycanın Şərq ilə Qərbi, Avropa ilə Asiyanı birləşdirməsi üçün çox gərəkli olduğunu, Azərbaycanın bu istiqamətdə həyata keçirdiyi fəaliyyətlərinin nəticəsini göstərir. Bakı konfransı XXI əsr üçün yeni böyük bir proqram açır. Güman edirəm ki, XXI əsrdə bu proqram genişlənəcək, inkişaf edəcəkdir. Biz çalışmalıyıq ki, bundan sonra da öz rolumuzu göstərə bilək. İndi dünyada belə proqramlar çoxdur və onların katibliyi ayrı-ayrı ölkələrdə yerləşir. Böyük İpək Yolunu, Avropanı və Asiyanı bir-birinə bağlayan proqramı həyata keçirən təşkilatın katibliyi isə Azərbaycanda yerləşəcək", – deyə Heydər Əliyev bildirmişdi.

Azərbaycan müstəqillik tarixində ilk dəfə belə geniş təmsilçilikli tədbirə ev sahibliyi edirdi və bu, ölkəmizin dünyaya tanıdılması üçün də fürsət idi. Konfransa 20 ölkədən 200-dən çox media nümayəndəsinin qatılması da bu baxımdan əlamətdar idi. Eyni zamanda ölkəmiz TRACECA proqramında lokomotiv missiyasını üzərinə götürməklə Avropa İttifaqından texniki-maliyyə dəstəyi alırdı. 1997-ci ildə Poylu körpüsünün (Bakı-Tbilisi dəmir yolu, Ağstafa rayonu) yenidən qurulması bu çərçivədə ayrılmış vəsait (2 milyon dollar) hesabına mümkün olmuşdu.

Azərbaycan XXI əsrə beynəlxalq nəqliyyat şəbəkəsinin kilid ölkələrindən biri kimi daxil oldu. 2001-ci ilin fevralında Bakıda Heydər Əliyevin iştirakı ilə TRACECA Katibliyinin açılışı keçirildi. Qarşıda Azərbaycanın dünya logistika xəritəsində yerini möhkəmlədəcək yeni layihələr vardı. Onları isə Ulu öndərin layiqli davamçısı İlham Əliyev həyata keçirəcəkdi.

"Əmin ola bilərsiniz ki, mən Heydər Əliyevin başladığı bütün işləri axıra çatdıracağam" – 2003-cü ilin oktyabrında prezident seçkilərində xalqın qarşına bu vədlə çıxan İlham Əliyev o gündən bu günə, xalqımızın və Ulu öndərin ən böyük arzusu – Qarabağ Zəfəri başda olmaqla, verdiyi bütün sözlərə əməl edib.

Başa çatdırılmalı işlərdən biri də Azərbaycanı tam şəkildə Şərqlə Qərbin, Şimalla Cənubun strateji nəqliyyat qovşağına çevirmək idi. Bu qovşağın ən mühüm polad damarı isə Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu olmalı idi. Bu, təkcə Transqafqaz miqyaslı iri logistika layihəsi deyildi, eyni zamanda iqtisadi mahiyyətinə tən gələcək qədər (geo) siyasi təşəbbüs, təcavüzkar Ermənistanı regional müstəvidə dalana dirəyəcək magistral idi. Təsadüfi deyil ki, gündəmə gəldiyi ilk vaxtdan bu layihəyə pəl vuranlar az deyildi.

2005-ci ilin mayında BTQ ilə bağlı Azərbaycan, Gürcüstan və Türkiyə prezidentlərinin birgə bəyannaməsi imzalandı. Ermənistan dərhal Amerikadakı lobbisinin köməyi ilə geniş əks-təbliğat kampaniyası başlatdı və 2006-cı ildə Konqresdə BTQ-yə maliyyə ayrılmasını qadağan edən qanun qəbul olundu. Lakin artıq zaman o zaman deyildi və Azərbaycanın özünün bu cür layihələr üçün imkanı vardı. Ölkəmiz layihənin Gürcüstan hissəsi üçün güzəştli kredit ayırdı. 2007-ci il noyabrın 21-də BTQ-nin Gürcüstan hissəsinin təməli qoyuldu. Bundan sonra da sürən bütün maneələrə rəğmən layihə reallaşdı və nəhayət, 2017-ci il oktyabrın 30-da Bakı Beynəlxalq Dəniz Ticarət Limanında (Ələt qəsəbəsi) Azərbaycan, Türkiyə, Qazaxıstan, Gürcüstan və Özbəkistanın dövlət və hökumət başçılarının, Tacikistan və Türkmənistandan nümayəndə heyətlərinin iştirakı ilə dəmir yolu açıldı.

### İpək Yolu polad magistrallarla davam edir

"Bakı-Tbilisi-Qars dəmir yolu tarixi layihədir, strateji əhəmiyyətli layihədir. Bu yolun uzunluğu təxminən 850 kilometrdir, onun da 504 kilometri Azərbaycan ərazisindən keçir. Bakı-Tbilisi-Qars dəmir yolu Avrasiyanın nəqliyyat xəritəsinin önəmli hissəsinə çevrilir. Bu yoldan istifadə edən bütün ölkələr arasındakı əməkdaşlıq dərinləşəcək. Bir çoxları bu yolun tikintisinə inanmırdılar. Ancaq biz sübut etdik ki, güclü iradə, qarşılıqlı dəstək, bir-birimizə inam olan yerdə bütün işləri görmək mümkündür", – deyə Prezident İlham Əliyev açılış mərasimində bildirmişdi.

1998-ci ildə Heydər Əliyevin Bakı konfransında dediyi kimi, Azərbaycan tarixi İpək Yolu üzərində XXI əsrin Avrasiyası üçün özünün qabaqcıl rolunu bir daha sübuta yetirdi. Ötən illər ərzində ölkədə nəqliyyat sahəsinin, xüsusilə dəmir yollarının inkişafı ilə bağlı görülən işlər, o cümlədən "Azərbaycan Respublikasında dəmir yolu nəqliyyat sisteminin 2010-2014-cü illərdə inkişafına dair Dövlət Proqramı"nın icrası da bu məramа xidmət edib.

Bu gün "Azərbaycan Dəmir Yolları" QSC beş transmilli nəqliyyat dəhlizində (hazırda Orta Dəhliz marşrutu ilə daha çox önə çıxan Şərq-Qərb nəqliyyat dəhlizi, Şimal-Cənub nəqliyyat dəhlizi, Şimal-Qərb nəqliyyat dəhlizi (Rusiya-Azərbaycan-Gürcüstan-Türkiyə), Cənub-Qərb nəqliyyat dəhlizi (Hindistan-Fars körfəzi-İran-Azərbaycan-Gürcüstan-Türkiyə-Avropa), "Lapis-Lazuli" (Əfqanıstan-Türkmənistan-Azərbaycan-Gürcüstan-Türkiyə) marşrutu) iştirak edir. Transqafqaz qovşaqlı bu yolların hər birində Azərbaycan əsas mövqe sahibidir.

Prezident İlham Əliyevin 2016-cı ildə təsdiq etdiyi Azərbaycan Respublikasında logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsi üzrə tədbirlərin mühüm qismi də dəmir yolları ilə bağlıdır. 2020-ci ilin tarixi Zəfəri bu xəritəyə daha bir yolu – Zəngəzur dəhlizini əlavə edib. Bu dəhlizdə polad magistralın mühüm parçası – 110,4 kilometrlik Horadiz-Ağbənd xəttinin tikintisi 2024-cü ildə tamamlanacaq. Eyni zamanda ADY Şimal-Cənub dəhlizinin tərkib hissəsi olan Sumqayıt-Yalama xəttində (167,7 km) yenidənqurma işlərini 2024-cü ilin sonuna başa çatdırmağı planlaşdırıb. Azərbaycan Şimal-Cənub dəhlizi üzrə Astarayadək (İran sərhədi) dəmir yolunu da yenidən qurub. Gözləmək olar ki, bu dəhliz üzrə İran ərazisindəki son bağlayıcı mərhələ – Rəşt-Astara (170 km) xəttinin inşası da tezliklə yekunlaşacaq. Hər halda, indi bu yolda hamıdan çox maraqlı olan Şimal qonşumuz da əlini cibinə salıb və may ayında İranla saziş imzalayıb.

### Yol mədəniyyət, İpək Yolu isə mədəniyyətlərin qovuşmasıdır

25 il öncə Bakıda dirçəldilən, daha sonra polad magistrallarla pərçimlənən İpək Yolu, sadəcə, yüklərin daşındığı yol deyil. Onun, tarixən olduğu kimi, bu gün də daha böyük anlamı var. Yol iqtisadiyyat, mədəniyyət, bir sözlə, həyat deməkdir. Heydər Əliyevin məşhur kəlamı bu gün İpək Yolu üzərində mədəniyyətlərin qovuşması ilə o böyük anlamı da ifadə edir.

Ulu öndər 2000-ci ildə İpək Yolunun geniş mahiyyətindən söz açarkən bunu diqqətə çatdırmışdı: "İpək Yolu deyəndə bəzən onu daha çox ticarət vasitəsi kimi anlayırlar. Amma qədim İpək Yolu eyni zamanda bu yolun üzərində yerləşən ölkələrin, xalqların bir-biri ilə əlaqə yaradaraq əldə etdiyi nailiyyətlərdən bəhrələnməsi üçün də çox böyük rol oynamışdır. Biz qədim İpək Yolunu bərpa edərkən, birinci növbədə, kommunikasiyaların yaranması və bu kommunikasiyalar vasitəsilə ticarət əlaqələrinin yaranması məqsədlərini qarşımıza qoyuruq. Ancaq bunlar xalqların mədəniyyətinin bir-birinə daha da qovuşması üçün də böyük imkanlar yaradacaqdır".

Bu gün Azərbaycanın mədəniyyətlər arasında dialoq üçün dünyanın gözdə məkanı olması, musiqinin, incəsənətin İpək Yolunun ölkəmizdən keçməsi bunun təsdiqi deyilmi?...

**Vüqar Əliyev**

*Yazı "Azərbaycan Dəmir Yolları" QSC və Azərbaycan Mətbuat Şurasının Ulu öndər Heydər Əliyevin 100 illik yubileyi münasibətilə kütləvi informasiya vasitələrinin təmsilçiləri arasında keçirdiyi müsabiqəyə təqdim olunur.*

# Mədəni sərvətlərin qorunması və bərpası

## Ölkəmiz Qazaxıstanda beynəlxalq festivalda təmsil olunub



Qazaxıstanın Türküstan vilayətində "ART Turkestan" adlı beynəlxalq incəsənət festivalı (21-28 iyun) keçirilib.

Tədbirə Qazaxıstan, Türkiyə, Qırğızıstan, Özbəkistan, Tatarıstan (Rusiya) və Özbəkistandan sahə üzrə ekspertlər qatılıblar.

Festivalda ölkəmizdən Muzey Sərvətləri və Xatirə Əşyalarının Elmi Bərpa Mərkəzinin direktoru Zərifə Məlikova ekspert kimi iştirak edib.

Tədbirdə mədəni sərvətlərin qorunması və bərpası, eyni zamanda muzey işinin prioritet istiqamətlərinin öyrənilməsi və tətbiqi, sahəyə dair beynəlxalq təcrübə və son elmi nailiyyətlər təhlil edilib, təcrübə mübadiləsi aparılıb.

Sonda tədbirə qatılmış ekspertlərə sertifikat təqdim olunub.

**Lalə**

# Qədim uyğur söz abidəsi haqqında monoqrafiya nəşr olunub

AMEA Nəsimi adına Dilçilik İnstitutunun Türk dilləri şöbəsinin aparıcı elmi işçisi dosent Qətibə Quliyevanın "Qədim türk abidəsi "Xuastuanift"in dili" adlı monoqrafiyası çap olunub.

İnstitutdan bildirilib ki, monoqrafiya qədim türk abidələri içində ikinci böyük qolu təşkil edən qədim uyğur abidələrindən olan "Xuastuanift"in Berlin, London və Sankt-Peterburq nüsxələri, onların tapılması və nəşri tarixi, qədim uyğur abidələrinin təsnifatı, qədim uyğur türkləri, onların tarixi və mədəniyyəti haqqında bilgiləri, eləcə də abidənin dil xüsusiyyətlərinin təhlilini əhatə edir.

Monoqrafiyada qədim türklərin dini inancları fonunda manixey dininə tapınan uyğur türklərinin müxtəlif zamanlarda qəbul etdikləri dini inanclardan, manixeyizmin yaranmasından və türklər arasında yayılmasından bəhs olunur. Qədim uyğur-türk etnokulturoloji təfəkkürünün məhsulu olan və manixey türklərin tövbə duası olan "Xuastuanift"in dil xüsusiyyətləri qədim və orta əsrlər türk yazılı abidələri, müasir türk dilləri ilə müqayisəli şəkildə araşdırılıb, uyğur türklərinin mədəniyyətinin müəyyən mərhələləri işıqlandırılıb, türkcənin təşəkkül və inkişaf tarixi fonunda abidənin türk tərcümə ədəbiyyatı tarixindəki yeri, abidənin yazıldığı dil mühiti, leksik və qrammatik xüsusiyyətləri təhlil edilib.

Monoqrafiyanın elmi redaktorları mərhum professor Məmmədəli Qıpçaq, rəyçiləri akademik Nizami Cəfərov, professorlar Sevil Mehdiyeva, Osman Fikri Sertkaya, redaktoru Dəyanət Osmanlıdır.

Azərbaycanda Atatürk Mərkəzinin dəstəyi ilə işıq üzü görən nəşr görkəmli türkoloq, mərhum professor Məmmədəli Novruzovun (Qıpçaq) əziz xatirəsinə həsr olunub.

# Sivilizasiyalararası əlaqələrin inkişafında tərcümənin rolu

Çin İctimai Elmlər Akademiyasının təşkilatçılığı ilə Pekində "Çin və dünya: bəşəriyyət naminə ortaq gələcəyə doğru" adlı beynəlxalq konfrans keçirilib.

Konfransa müxtəlif ölkələri, beynəlxalq təşkilatları təmsil edən 200-dən çox alim, mütəxəssis, siyasətçi, keçmiş dövlət xadimləri qatılıb. Tədbir çərçivəsində qlobal inkişafın bərpası, insan və təbiətin ortaq taleyi, sivilizasiyalararası mübadilənin dərinləşməsi, yoxsulluğun azaldılması və BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri, dövlət idarəetmə təcrübəsi mövzularında paralel panellər təşkil olunub.

Pekin Xarici Dillər Universitetinin Azərbaycan dili kafedrasının müdiri filologiya üzrə fəlsəfə doktoru Aqşin Əliyev sivilizasiyalararası əlaqələrin inkişafında tərcümənin rolu haqqında mühazirə ilə çıxış edib. O, Azərbaycan və Çin xalqları arasında mədəni münasibətlərin tarixinə qısa nəzər salaraq, bəzən coğrafi, bəzən geosiyasi amillərə görə iki ölkə arasında mədəni rabitənin hələ lazımi səviyyədə qurulmadığını vurğulayıb. Amma hazırda sürətlə inkişaf edən Azərbaycan-Çin münasibətlərində mədəni əlaqələrin xüsusi önəm daşıdığı və bu yöndə tərcümə sənətinin mühüm rolu faktlarla diqqətə çatdırılıb.

# Almalı diyardan sənət təəssüratı...

Günortanın istisidir. Bəşir Səfəroğlu adına Quba rayon Mədəniyyət Mərkəzindəyəm Mərkəzin uzun dəhlizi ilə addımladıqca qapılardan fərqli musiqi alətlərində səslər gəlir. Məni direktor Ramiz Ramazanovun otağına aparan əməkdaşdan "Burada dərslər də olur? Axı tətildir" deyə soruşuram. Bildirir ki, ansambllar, musiqi qrupları tez-tez məşq edirlər, qarşıdakı tədbirlərə hazırlaşırlar. Taybatay açıq qapı önündə dayanırıq və bələdçim sağollaşıb gedir...

Quba "Könüllülər teatrı"nın məşqi gedir. Dördlük nəyisə qızğın müzakirə edir, Ramiz müəllim mizan verir. Onunla üz-üzə dayanan həvəskar aktyor özünəməxsus əda ilə "Müəllim, gərək bu sözdən sonra ayaq verə də mənə" deyib tərəf-müqabilinin replikasını kəsir. O da "Mətni əzbərləyəndən sonra hamısı olacaq" deyib gülümsünür...

Ramiz müəllim "Səbirli olun, bu hələ "oxunuş"du. Səhnədə məşqdə hamısı yerində olacaq. Hə, təzədən Hökmdarın şairin evinə girişi ilə başla. Üz-gözünü də turşutma, zabitə ver" deyir.











Bir neçə dəqiqədən sonra məşqdə fasilə elan edilir və mən həvəskarları söhbətə tuturam. Könüllü teatrın çoxdan hövsələsi daralan balaca aktyoru tez anasının əlini dartıb hamımızın eşidəcəyi "pıçıltı" ilə "Qonaq gəldi, o danışana qədər mən gedib çöldə oynaya bilərəm?" sual-icazəsi istədi. Uşaq anasına, anası da tamaşanın rejissoru Ramiz müəllimə baxdı. Balacanı intizarda saxlamadan nəzərləri ilə "hə" deyən Ramiz Ramazanov söhbətinə Quba "Könüllülər teatrı" ilə başladı:

– Bildiyiniz kimi, Qubada zəngin repertuarı və yaradıcılıq yolu olan dövlət teatrı olub və ötən əsrin ortalarında özünün parlaq dövrünü yaşayıb. Sonra bir sıra rayon teatrları kimi onun da fəaliyyətinə xitam verilib. Mən də əksər qubalılar kimi bu teatrın nostalgiyasını yaşadım. Sonra Quba teatrı haqqında xatirələri, tarixi məlumatları toplayaraq geniş yazı hazırladım. Hətta vaxtilə bu teatrda çalışmış müqtədir sənətkarlarımızla görüşüb xatirələrini də dinlədim. Lakin bununla teatrın problemləri həllini tapmırdı, axı...

Biz mədəniyyət işçiləri bir araya gələrək Quba teatrını bürüyən ətalət buzunu əritməyə qəti qərar verdik. Qubada teatr sahəsində mövcud 30 illik durğunluğu nəhayət ki, 2019-cu ildə aradan qaldırdıq. B.Səfəroğlu adına Quba rayon Mədəniyyət Mərkəzinin təşəbbüsü ilə hazırlanan "Biz Xocalıya qayıdacağıq!" adlı səhnə əsəri rayon tamaşaçılarına təqdim olundu. Bu tamaşadan ruhlanaraq biz teatr yaradıcılığını davam etdirməyi qərara aldıq. 2020-ci ilin ölkəmizdə Prezident İlham Əliyev tərəfindən "Könüllülər ili" elan edilməsi Qubada teatr sənətinin inkişafına öz töhfəsini verdi. Müxtəlif sahələrdə çalışan, ayrı-ayrı yaş kateqoriyalarından olan həvəskarları dəvət etdik və beləliklə, "Könüllülər teatrı"nı yaratdıq. İlk tamaşa Cəlil Məmmədquluzadənin "Kamança" əsəri oldu. Tamaşa 2020-ci ilin fevral ayında nümayiş olundu. Artıq teatr truppası tam formalaşıb. İndi kollektiv bölgənin ayrı-ayrı rayonlarına qastrol səfərlərinə hazırlaşır, eyni zamanda yeni repertuar üzərində çalışır.

## Əsas istəyimiz "xalq teatrı" statusu almaqdır

Ramiz Ramazanov deyir ki, hazırda əsas istəyimiz bu kollektivin "xalq teatrı" statusu almasıdır. Belə olduqda bizim fəaliyyətimiz daha da genişlənər. Əslində, bu statusu almaq üçün hələ pandemiyadan əvvəl müvafiq quruma müraciət etmişdik. Tamaşamız da hazır idi, gəlib baxacaqdılar. Sadəcə, araya karantin düşdü və o işlər yarımçıq qaldı. Buna baxmayaraq, durmadan çalışır, insanların teatr tələbatını ödəməyə, mədəni-kütləvi tədbirlərə teatr sığalı, səhnə düzümü verməyə çalışırıq.

Həmsöhbətim məşqi aparılan səhnə işi haqqında da məlumat verir. Deyir ki, "Nizami inciləri" teatrlaşdırılmış kompozisiyadan parçadır: "Mədəniyyət mərkəzinin nəzdində "Art" yaradıcılıq studiyamız da var. Studiya kiçik filmlər, videoçarxlar hazırlayır. Bu qəbildən olan işlərdən biri də N.Gəncəvinin "Kərpickəsən kişinin dastanı" qısametrajlı bədii filmidir. Biz həmçinin 1918-ci ilin soyqırımından bəhs edən "Quba faciəsi" sənədli filmini də hazırlamışıq və İctimai TV-də geniş tamaşaçı auditoriyasına təqdim olunub.

"Quba – multikultural diyar" və "Zəfər yazanlar" kitabları da bizim axtarışların nəticəsidir. Hazırda "Zəfər tacı" tamaşası üzərində məşqlər bitir. Biz, istər ayrı-ayrı dərnəklər, istərsə də teatr olaraq rayonumuzda səhnəyə sevgi və marağı saxlamağa çalışırıq".

Ramiz müəllim sonra bayaqdan canfəşanlıqla məşq edən aktyorlarını təqdim edir və biz söhbətə onlarla davam edirik.

**Təbib Əsgərov** Yeni Güləzi kənd folklor klubunun mədəni təşkilatçısı, könüllülər teatrının da bədii rəhbəri və aktyorudur: "Tamaşalarda iştirak edən aktyorların çoxu, əslində, heç mədəniyyət sahəsində çalışmırlar. Sadəcə, maraq göstərirlər. Xüsusən də gənclər. İlkin təəssürat və maraq həvəskar gənc aktyorumuzu artıq Mədəniyyət və İncəsənət Universiteti Aktyorluq fakültəsinin tələbəsi etdi. Məncə, bu da bizim teatrımızın uğurudur.

Teatr elə bir yerdir ki, insan orada saflaşır, maariflənir, zövq və düşüncəsi də dəyişir. Biz də bunu nəzərə alaraq ümumən klassik nümunələr, kompozisiya, əsərlərdən irihəcmli parçalar hazırlayırıq".

**Gülnar Abdullayeva** bayaqkı balaca aktyorun anasıdır, özü də Quba MKS-nin Güləzi kənd kitabxanasının filial müdiri, "Könüllülər teatrı"nın üzvüdür.

Deyir teatra uşaqlıqdan marağı olub: "Amma aktrisa olmaq mənə nəsib olmadı, kitabxanaçılıq üzrə təhsil aldım, sonra iş, ailə və qayğılar bir-birini üstələdi. Beləcə, səhnədə olmaq, insanların önündə çıxış etmək arzularım da ürəyimdə qubara çevrildi. Qəribədir, insan nəyisə ürəkdən istəyəndə gec-tez olur. Quba "Könüllər teatrı" da mənim könlümdə qalaqlanan arzularımı, işıqlı xəyallarımı gün üzünə çıxardı. Təsəvvür eləməzsiniz, mən hər səhnəyə çıxıb, epizodik də olsa, rol ifa edəndə necə xoşbəxt oluram. Elə bilirəm minlərlə insan mənə baxır, alqışlayır, sevir. Çox istərdim ki, mənim kimi saysız bu sahəyə marağı, sevgisi olan qadınlar üçün meydan verilsin, ən azı xalq teatrı olaq ki, sıralarımız da genişlənsin".

## "Tat təranələri qədim musiqi alətlərində səslənsin..."

Könlünü teatra verənlərin məşq fasiləsi bitdi. Elə mənim də onlarla görüşüm. Çünki bayaqdan qulağım yan otaqdan gələn kamanın dəf ilə harmoniyasında idi. "Könlüm düşdü diyar-diyar, Bir kəkliyin sorağına" mahnısının sədası məni arxasınca apardı...

İşıqlı balaca otağın ortasında dayanan yaşlı kişi gözlərini yumaraq oxuyurdu. Kamançaçı da öz dünyasında idi. Tez gözüm tarçalanı axtardı. Deyəsən, bu dəfə yük kamançanın üzərinə düşmüş, meydan ona verilmişdi. İfa bitdi, mənim kimi qapı ağzında dayanan 3-4 nəfər var gücü ilə alqışlamağa başladı. Bəyaz saçlarını barmaqlarını daraq edərək yana darayan ifaçı səhnədəymiş kimi təzim elədi. Dəfini masanın üzərinə qoyub əllərini bir-birinə sürtdü. Hiss olunurdu ki, ürəyi doludur: "Quba rayon Mədəniyyət Mərkəzinin bədii rəhbəri, eyni zamanda xanəndə **Seyfulla Ağayev**. İllərdir ki, burada çalışıram və xalq musiqimizi, muğamlarımızı təbliğ edirəm. Bir də azsaylı xalqların folklor mahnı və musiqilərinin təbliği ilə məşğuluq. Muğamları, xalq musiqisini öyrənmək istəyən gənclərin sayı artıb. Gördüyünüz kimi, biz də burada sevə-sevə o gəncləri sənətlə tanış etməyə, bildiklərimizdən öyrətməyə çalışırıq. "Rast" adlı muğam üçlüyümüz də var. Bundan əlavə, "Tat" folklor klubu da var. Siz buradaykən qoyun, bir arzumu dilə gətirim, bəlkə reallaşar. "Tat" folklor klubundakı nənələrimiz o xalqın musiqisi, folkloru, adət-ənənələri, ümumən mədəni dəyərlərini yaşadıb yeni nəsillərə ötürürlər. Onlar bayatılar, müşayiətsiz xalq nəğmələrini oxuyurlar, biz də onlara qoşulub həmin mahnıları üçlüyün müşayiətində ərsəyə gətiririk. Çox istərdim ki, bu qədim və zəngin musiqilər, tat təranələri Musiqi Mədəniyyəti Dövlət Muzeyinin Qədim musiqi alətləri ansamblının ifasında səslənsin və lentə alınsın. Axı zaman dayanmır və o nəğmələri bilən insanlar da dünyasını dəyişir...".

## Beşsimli kamançanın fərqi...

Üçlüyün kamançaçalanı **Məmmədəli Cəfərov** ömrünün 40 ilə yaxın bir dövrünü bu sənətə sərf edib. Onu söhbətə çəkmək elə də asan olmadı. İfa etdiyi kamançanı masanın üzərinə qoyub nə isə axtarmağa başladı. Bəlli oldu ki, ifa etdiyi öz aləti deyil. İsrarla divara söykənən qutunu göstərdi, "Mənim kamançam 5 simlidir, sadəcə, indi əlimin altında bu var idi, onda müşayiət etdim. Dayan, şəklimi öz kamançamla çək" deyib qutunu masanın üzərinə qoydu. Ən əziz adamına qovuşubmuş kimi kamanının çanaq hissəsini sığalladı. Onu söhbətə çəkmək üçün "Narahat olmayın, yəqin elə də böyük fərqi olmadı. Çünki ifanız çox gözəl idi" dedim. Kaş heç deməzdim. Qocaman musiqiçi olasan, qeyri-peşəkar rəyə əsəbiləşməyəsən. Sağ olsun, məni yanıltmadı və sonradan hamılıqla güləcəyimiz zarafatını elədi: "İstəyirdim məxsusi sənin üçün beşsimli ilə nə isə ifa edəm. Amma həvəsimi qırdın..." deyib kamanını yenidən qutusuna qoydu. Birtəhər könlünün alıb söhbətə tutdum.

Köks ötürərək "Bu yaxınlarda beşsimli kamança ilə bağlı xüsusi proqramım çıxacaq. Sən də deyirsən nə fərqi var? Saç-saqqal elə-belə ağarmadı, ay qızım. Rəhmətlik atam Nadir Quba Dövlət Dram Teatrında hələ gənc yaşında ikən bir sıra musiqili səhnə əsərlərində canlı müşayiət edib. Bu alətə sevgim də ondan qaynaqlanır. Atamın dayısı da kamançaçalan olub, ona da kamança çalmağı o öyrədib. Tarı da bizlərə rəhmətlik Şamil əmi sevdirdi. Onlar atamla, demək olar ki, həmyaşıd idilər. Mən də onlara baxa-baxa vuruldum bu sənətə. 40 ilə yaxındır ki, Mədəniyyət Mərkəzində çalışıram. Musiqi məktəbində də çalışmışam vaxtilə. Təəssüf ki, kamançaya indi əvvəlki kimi maraq çox deyil. Özüm kamança ilə yanaşı, klarnet, qarmon və skripkada da ifa edirəm. Hamısını da özüm öyrənmişəm".

Həmsöhbətim sözlərini bitirib masanın çəkməcəsindən bir albom çıxardı. Ağ-qara şəkilli albomda müxtəlif illərin konsert, tədbir və səfərlərinin foto yaddaşı dilə gəldi...

## Mədəniyyət mərkəzinin 77 filialı var

İndi isə mərkəzin direktoru Ramiz müəllimin otağındayam. Ondan mərkəzin fəaliyyəti haqqında qısa məlumat aldım. B.Səfəroğlu adına Quba rayon Mədəniyyət Mərkəzi əvvəllər mədəniyyət evi kimi fəaliyyət göstərib və 2015-ci ildən mərkəz statusu alıb. 77 filialı özündə birləşdirir. Onlardan 4-ü mədəniyyət evi, 73-ü isə kənd və qəsəbə klublarıdır. Bu müəssisələrdən də 30-u xalq sənəti, sənətkarlıq, diyarşünaslı və folklor klubları olaraq profilləşdirilib.

Həmsöhbətim deyir ki, əsas missiyamız əhalinin asudə vaxtının səmərəli təşkili, eləcə də rayonda keçirilən mədəni-kütləvi tədbirlərdə iştirak etməkdir: "Bölgədə yaşayan istedadların axtarılıb tapılması, sənətkarlıq növlərinin yaşadılması və təbliğatı da bizim çoxşaxəli fəaliyyət istiqamətlərimizdəndir. Ayrı-ayrı sənət və yaradıcılıq sahələrinə gəncləri cəlb etmək elə də asan deyil. İnanın ki, az qalırıq qapı-qapı gəzib, onları həvəsləndirib mərkəzə gətirək. Hazırda Qubada 20-dək xalqın nümayəndəsi yaşayır. Sözsüz ki, onların da özünəməxsus folkloru, adət-ənənəsi, mətbəxi, yəni mədəniyyəti var. Çalışırıq onların da yaşadılması üçün mütəmadi iş aparaq. Mədəniyyət Mərkəzi olaraq müxtəlif tədbirlərə onları cəlb edirik".

Müxtəlif geyim və dekorlarla dolu otaqda gözüm divandakı uda sataşır. Hiss olunur ki, hansısa növbəti tədbirə hazırlıq var. Ramiz müəllim Quba Rayon Tarix-Diyarşünaslıq Muzeyindən xüsusi icazə ilə gətirdiyi eksponatları göstərərək kütləvi rayon tədbirinin ssenarisi haqqında qısaca danışır. Sonra sözümü yerə salmayıb udda "Şur" muğamından parçanı ifa edir. Bu an onun nə düşündüyünü aydın hiss etmək çətin olsa da, xoşbəxtliyi, alətin və musiqinin verdiyi məmnunluğu üz-gözündən oxunurdu.

Ramiz müəllimlə sağollaşıb kəndirbaz, qubalı sim pəhləvanı Amil Məmmədhüseynovla görüşə tələsdim...

**Həmidə Nizamiqızı**
**Bakı-Quba-Bakı**

## Xatirə təqvimi — 11-14 iyul

### Azərbaycan

**11 iyul 1926** – Əməkdar rəssam Altay Ağasəid oğlu Səidov (1926 – 10.9.2015) Bakıda anadan olub. Gənc Tamaşaçılar Teatrında quruluşçu rəssam, baş rəssam işləyib, Musiqili Komediya Teatrında tamaşalara səhnə tərtibatı verib

**11 iyul 1926** – Tarix elmləri doktoru Şövkət Əzizağa qızı Tağıyeva (1926-2015) anadan olub. Cənubi Azərbaycan və İran tarixinə dair tədqiqatların müəllifidir.

**11 iyul 1937** – Əməkdar rəssam Əkrəm Qulam oğlu Həsənzadə (1937 – 22.11.2007) anadan olub. Ə.Əzimzadə adına Dövlət Rəssamlıq Texnikumunda çalışıb. Rəssamlar İttifaqının bölmə müdiri olub.

**11 iyul 1939** – SSRİ rəhbərliyinin göstərişi ilə Azərbaycan SSR Ali Soveti latın qrafikalı əlifbadan kiril (rus) qrafikalı əlifbaya keçmək haqqında qanun qəbul edib. Kiril qrafikalı əlifbaya keçid 1 yanvar 1940-cı ildə gerçəkləşib.

**11 iyul 2006** – Görkəmli kinorejissor, operator, Xalq artisti Rasim Mirqasım oğlu Ocaqov (22.11.1933 – 2006) vəfat edib. "Sən niyə susursan?", "Onun böyük ürəyi" və s. filmlərin quruluşçu operatoru olub. "Tütək səsi", "Ad günü", "İstintaq", "Ölsəm, bağışla..." və s. filmlərə quruluş verib.

**11 iyul 2017** – Prezident İlham Əliyev Azərbaycanın ilk qadın opera müğənnisi, SSRİ Xalq artisti Şövkət Məmmədovanın 120 illik yubileyi haqqında sərəncam imzalayıb.

**12 iyul 1812** – Mütəfəkkir yazıçı, böyük dramaturq Mirzə Fətəli Axundzadə (1812 – 10.3. 1878) Şəkidə anadan olub. Yaradıcılığa şeirlə başlayıb. 1850-1855-ci illərdə yazdığı altı komediya ("Molla İbrahimxəlil kimyagər", "Müsyö Jordan və dərviş Məstəli şah", "Lənkəran xanının vəziri", "Xırs-quldurbasan", "Hacı Qara", "Mürafiə vəkilləri") ilə milli dramaturgiyanın, 1857-ci ildə qələmə aldığı "Aldanmış kəvakib" povesti ilə realist Azərbaycan nəsrinin təməlini qoyub.

**12 iyul 1911** – Böyük satirik şair, maarifçi və mütəfəkkir Mirzə Ələkbər Sabir (30.5.1862 – 1911) vəfat edib. Ölümündən sonra şeirləri "Hophopnamə" adlı topluda nəşr olunub.

**12 iyul 1940** – Əməkdar incəsənət xadimi, bəstəkar Ruhəngiz Nağı qızı Qasımova (1940 – 9.9.2022) anadan olub. Teatr və televiziya tamaşalarına, filmlərə ("Möcüzələr adası", "Alman klinikasına şəxsi səfər" və s.) musiqilər yazıb, mahnıların müəllifidir.

**12 iyul 1987** – Əməkdar mədəniyyət işçisi, aşıq Hüseyn Saraçlı (Hüseyn Qurban oğlu Həsənov; 1916-1987) vəfat edib.

**12 iyul 2017** – Prezident İlham Əliyev görkəmli teatr və kino aktyoru, Xalq artisti Ağasadıq Gəraybəylinin 120 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalayıb.

**13 iyul 1889** – Maarif və mədəniyyət xadimi Xosrov Mirzə Əli oğlu Axundzadə (1889-1960) Şuşada anadan olub.

**13 iyul 1910** – Yazıçı-dramaturq, tərcüməçi Nağı Kərim oğlu Nağıyev (1910-1981) Naxçıvan MR Culfa rayonunun Yaycı kəndində anadan olub.

**13 iyul 1926** – Xalq rəssamı Vidadi Yaqub-Fərman oğlu Nərimanbəyov (1926-2001) anadan olub. "Yolda", "Xatirələr", 20 Yanvar mövzusunda "Qatillər" tabloları və s. əsərlərin müəllifidir. 20-dək ölkədə sərgisi keçirilib.

**13 iyul 1936** – Kinooperator, rejissor, Əməkdar incəsənət xadimi Rasim Rza oğlu İsmayılov (1936 – 4.5.2004) anadan olub. "Axırıncı aşırım", "Gün keçdi", "Nəsimi", "Babək" və s. filmlərin quruluşçu operatoru olub. "Şir evdən getdi", "Sizi dünyalar qədər sevirdim" və s. bədii filmlərə quruluş verib.

**13 iyul 1946** – Bəstəkar Eldar Səid oğlu Rüstəmov (1946-2010) anadan olub. Romans, süita, oda və s. janrlarda əsərlər, filmlərə musiqilər yazıb.

**13 iyul 2001** – Xalq şairi Mirvarid Paşa qızı Dilbazi (19.8.1912 – 2001) vəfat edib. . "Məhəbbət", "Partizan Aliyə", "Ana ürəyi" poemaları, "Bənövşələr üşüyəndə", "Yasəmən fəsli" və s. kitabların müəllifidir. Rus şairlərinin əsərlərini dilimizə tərcümə edib.

**14 iyul 1905** – Aşıq Alıxan Qarayazılı (Alıxan Qurban oğlu Ömərov; 1905-1998) Gürcüstanın Qarayazı bölgəsinin Kosalı kəndində anadan olub.

**14 iyul 1914** – Ədəbiyyatşünas, tərcüməçi Kövsər Məmməd qızı Tarıverdiyeva (1914-2014) İrəvan şəhərində doğulub. 50 ildən çox Azərbaycan Dövlət Pedaqoji Universitetində Azərbaycan ədəbiyyatı tarixini tədris edib.

### Dünya

**11 iyul 1892** – Amerika aktyoru, kinodramaturq, "Oskar" mükafatçısı Tomas Con Mitçell (Thomas John Mitchell; 1892–1962) anadan olub.

**12 iyul 1813** – Fransız psixoloqu, eksperimental psixologiyanın banisi Klod Bernar (Claude Bernard; 1813-1878) anadan olub.

**12 iyul 1884** – İtalyan rəssamı Amadeo Modilyani (Amedeo Clemente Modigliani 1884-1920) anadan olub. Qadın rəsmlərinin mahir ustası olub.

**12 iyul 1904** – Çili şairi, ədəbiyyat üzrə Nobel mükafatı (1971) laureatı Pablo Neruda (Pablo Neruda - Ricardo Eliezer Neftal Reyes Basoalto; 1904-1973) anadan olub.

**13 iyul 1841** – Avstriya memarı, müasir Avropa memarlığının banilərindən biri Otto Vaqner (Otto Koloman Wagner; 1841-1918) anadan olub.

**13 iyul 1923** – SSRİ Xalq artisti Mixail Puqovkin (1923-2008) anadan olub. Əksəriyyəti komediya olmaqla 100-dək filmdə ("I" əməliyyatı...", "Sportloto-82", "İvan Vasilyeviç peşəsini dəyişir" və s.) çəkilib.

**14 iyul 1860** – Rus tarixçisi, şair, yazıçı və publisist Vasili Lvoviç Veliçko (1860-1904) anadan olub. Bir çox tarixi gerçəklərə işıq salan "Qafqaz" kitabının müəllifidir.

**14 iyul 1903** – Amerika yazıçısı İrvinq Stoun (İrving Stone; 1903-1989) anadan olub. Görkəmli insanlar haqqında bioqrafik romanların müəllifidir.

**14 iyul 1904** – Yəhudi əsilli Amerika yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı (1978) laureatı İsaak Başevis-Zinger (İsaac Bashevis Singer; 1904-1991) anadan olub. Əsərləri: "Şeytan", "Nicatverən günahkar", "Muskat ailəsi" və s.

**14 iyul 1918** – İsveç rejissoru, ssenarist və yazıçı İnqrid Berqman (Ernst İngmar Bergman; 1918 - 30.7.2007) anadan olub. "Yeddinci möhür", "Yay gecəsinin təbəssümü", "Pıçıltı və qışqırıq" və s. filmlərə quruluş verib.

**14 iyul 1928** – Gürcü yazıçısı Nodar Dumbadze (1928-1984) anadan olub. "Mən, nənəm, İliko və İllarion", "Ağ bayraqlar" romanları, "Kukaraça" povesti və s. əsərlərin müəllifidir.

**Hazırladı: V.Orxan**

## "Ozan" elm və sənət toplusunun növbəti sayında

Azərbaycan Aşıqlar Birliyinin nəşri olan "Ozan" elm və sənət toplusunun 2023-cü ildə ilk buraxılışı işıq üzü görüb.

Toplunun bu nömrəsi Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Xalq şairi Zəlimxan Yaqubun "Əbədiyyət dastanı" poemasından bir parça ilə açılır.

Topluda bu il yubileyləri qeyd olunan görkəmli saz-söz ustadları Hüseyn Bozalqanlı (M.Qasımlı. "Ustadlar ustadı"), Şair Nəbi Borçalı (E.Məmmədli. "Borçalı nəğməkarı"), Murad Niyazlı (S.Alıyev. "Ağır ellər ozanıyam"), Əkbər Cəfərov ("Sazın Əkbər möcüzəsi") və Məmmədağa Babayev haqqında yazılar və onların şeirlərindən nümunələrlə tanış ola bilərlər.

Oxucular Əməkdar elm xadimi, professor Məhərrəm Qasımlının "Folklor mənşəli arxaik musiqi alətlərinin yaranma səbəbləri" və "Əfsanəvi keçmişimizi qürurla gələcəyə daşıyan heyrətamiz Oğuznaməçi şair – Azər Buzovnalı", professor İradə Köçərlinin "Qurban Səid/Məhəmməd Əsəd/Lev Nissimbaumun qəhrəmanı nəyə görə Azərbaycan dilində bayatı şikəstə oxuyur?", araşdırmaçı Nailə Səmədovanın "Azər Buzovnalı "Oğuznamə"si", Şəbnəm Haqverdiyevanın "Aşıq deyişmələri" toplusu haqda düşüncələr" və "Aşıq təcnislərinin ilk mükəmməl antoloji nəşrləri" kimi elmi məqalələrlə yanaşı, "Aşıq Qərib" dastanı ilə də tanış ola bilərlər.

Toplunun bu nömrəsində də Azərbaycan Aşıqlar Birliyinin həyata keçirdiyi tədbirlər barədə xəbərlər və son vaxtlar işıq üzü görmüş kitablar haqda qısa məlumatlar yer alıb.

# Latviyada 150 yaşlı festivalda Azərbaycan rəqsləri də nümayiş olunub

İyunun 30-dan iyulun 9-dək Riqada Avropanın ən qədim tarixə malik festivallarından biri – Latviyanın Milli mahnı və rəqs festivalı keçirilib. 1873-cü ildə əsası qoyulan və beş ildən bir keçirilən festival 150-ci ildönümündə ölkənin 43 bölgəsindən 40 min insanı bir araya gətirib. On gün ərzində 60-dan çox tədbir təşkil olunub.



Festival tarixində ilk dəfə Latviyada fəaliyyət göstərən və Ancela Cəfərovanın rəhbərlik etdiyi "Buta" Azərbaycan rəqs qrupu da iştirak edib.

İyulun 2-də festival iştirakçılarının Riqa şəhərində təntənəli keçidi olub. "Buta" rəqs qrupu da milli geyimdə keçidə qatılıb.

İyulun 6-da "Buta" rəqs qrupu Riqadakı Vermanes bağında keçirilən "Xalqlar günü" konsertində çıxış edib. Qrupun üzvləri Azərbaycan və Latviyanın dövlət bayraqları ilə səhnəyə çıxaraq "Uzundərə", "Sarı gəlin", "Qaval" və "Kəlağayı" rəqslərimizi məharətlə təqdim ediblər. Festivalda ilk dəfə təqdim olunan Azərbaycan milli rəqsləri çoxsaylı tamaşaçılar tərəfindən böyük marağa səbəb olub.

Qeyd edək ki, festival 2003-cü ildə UNESCO tərəfindən bəşəriyyətin qeyri-maddi mədəni irsinin şah əsəri elan olunub və Latviyanın ölkə səviyyəsində geniş şəkildə qeyd olunan ən məşhur ənənəvi bayramı sayılır.

# Tbilisidə Şuşa ilə bağlı fotosərgi

Şuşa şəhərinin 2023-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" olması ilə əlaqədar iyulun 9-da Tbilisidəki M.F.Axundzadə adına Azərbaycan Mədəniyyəti Muzeyində fotosərgi açılıb.



Sərgidə Şuşanın füsunkar gözəlliyini əks etdirən fotolar, eləcə də şəhərin Azərbaycan və dünya mədəniyyətinə, incəsənətinə incilər bəxş etmiş tarixi şəxsiyyətlərinin şəkilləri yer alıb.

Sərgi Azərbaycan Respublikası Gənclər Fondunun dəstəyi ilə "Uşaq və Yeniyetmələrə Dəstək" (UYD) İctimai Birliyi tərəfindən icra olunan "Shusha, the cultural capital of Azerbaijan, in photos" (Azərbaycanın mədəniyyət paytaxtı Şuşa fotolarda) adlı beynəlxalq fotoqrafiya layihəsi çərçivəsində gerçəkləşib.

Sərgini ziyarət edənlərə Şuşa açıqcaları paylanılıb.

Layihənin məqsədi Şuşanın tarixinin və mədəni irsinin təbliğ edilməsidir.

# "Dənizlərin simvolu"

## Dünyanın ən böyük kruiz gəmisi gələn il reysə çıxacaq...

"Royal Caribbean International" şirkəti (mənzil-qərargahı ABŞ-da, Mayami şəhərində yerləşir) dünyanın ən böyük "Icon of the Seas" ("Dənizlərin simvolu") adlı kruiz gəmisinin nümayiş olunduğu videoçarxı təqdim edib.

Uzunluğu 365 metr, ağırlığı (su tutumu) 250 min ton olan gəmidə 2805 kayut olacaq ki, onların hər birində iki nəfər olmaqla, gəmidə cəmi 5610 nəfər yerləşə biləcək. Bundan əlavə, gəminin ekipaj heyəti 2350 nəfər nəzərdə tutulub.

"Icon of the Seas"ın nə qədər böyük olduğunu diqqətə çatdırmaq üçün qeyd edə bilərik ki, bir əsr əvvəl dünyanın ən böyük sərnişin gəmisi olmuş "Titanik"in uzunluğu 269 metr, ağırlığı 52 min ton, sərnişin tutumu 2440 nəfər (o cümlədən 900 nəfər ekipaj) olub.



"Icon of the Seas"ın ümumilikdə 20 göyərtəsində (mərtəbə və sektorlar üzrə) 40 restoran olacaq. Fəvvarəli konsert zalı da nəzərdə tutulub. Gəmi 7 hovuz və 6 su sürüşməsi ilə təchiz olunacaq. "Icon of the Seas"də həmçinin gəmilər arasında ən hündür şəlalə, ən yüksək su sürüşməsi, ən böyük su parkı və ilk asma mənzərə hovuzu da olacaq.

2023-cü ilin iyununda gəmi dəniz sınaqlarının birinci mərhələsinə başlayıb. Plana uyğun olaraq gəmi 2024-cü ildə Mayami limanından Karib dənizinə ilk kruizə çıxacaq.

# Pizzanı 2 min il əvvəl də yeyirmişlər

İtaliyanın Neapol şəhəri yaxınlığındakı Pompey Arxeoloji Parkında aparılan qazıntılar zamanı yarısökük divarda aşkar edilmiş 2 min illik rəsmdə üzərində dairəvi kökə və təzə qurudulmuş meyvələr olan gümüş qab təsvir olunub.

Ekspertlər qeyd ediblər ki, müasir pizzanın bu qədim versiyasına pomidor və pendir kimi o vaxtlar əlçatan olmayan klassik inqrediyentlər daxil olmurdu, əvəzində onun tərkibində ananasa oxşar qida məhsulu var idi.



Hesab olunur ki, freska Ellinistik dövrdən gələn yunan ənənəsinə uyğun olaraq qonaqlara təklif olunan sovqatları təsvir edir.

Roma imperiyasının Pompey şəhəri eramızın 79-cu ilində 2 minə yaxın insanın ölümünə səbəb olan Vezuvi vulkanının püskürməsindən sonra kül altında qalıb. Şəhərin xarabalıqları arxeoloqların 1748-ci ildə apardıqları ilk qazıntılardan bəri tapdıqları eksponatların xəzinəsidir.

# 82 yaşında universitet məzunu olub



Türkiyənin Kastamonu Universitetinin 82 yaşlı məzunu Hamdi Balkaş səhhətində olan problemə rəğmən məzun mərasimində iştirak edib.

Kastamonu Universitetinin İncəsənət fakültəsini bitirən ən yaşlı məzun bundan əvvəl orta məktəbdə biologiya müəllimi olub. Balkaş bildirib ki, rəssamlıq sənətinə olan böyük marağı onu ikinci ali təhsil almağa sövq edib. O, 2018-ci ildə universitetə daxil olub. Səhhətində yaranan ciddi problemlər və üç dəfə cərrahiyyə əməliyyatı keçirməsi ağsaqqal tələbəni təhsildən yayındıra bilməyib və o, buraxılış imtahanında tələbələr arasında üçüncü nəticə göstərib.

Bu il Kastamonu Universitetinin məzunları arasında İctimai elmlər fakültəsinin fəlsəfə bölümünü bitirən 61 yaşlı Fatma Gül Çohadar da var. Qadın bildirib ki, gənclik illərində təhsil almaq imkanı olmayıb və 56 yaşında ali təhsil almağa qərar verib. Fatma xanım gənclərə tövsiyə edib ki, həyatlarının ən gözəl və enerjili illərini təhsilə sərf etsinlər. O, oxumağın heç vaxt gec olmadığını deyib. Təqaüdçü məzun bildirib ki, o, magistr təhsili almağı da planlaşdırır.

# Nə qədər yaşayırıq?

## BMT-nin Əhali Fondu növbəti hesabatını yayıb...

11 iyul – Dünya Əhali Günü ərəfəsində BMT-nin Əhali Fondu (UNFPA) dünyadakı demoqrafik vəziyyətlə bağlı növbəti hesabatını (2022-ci ilin yekunları) yayıb. Əlamətdar gün 1987-ci ilin 11 iyulunda Yer kürəsi əhalisinin sayının 5 milyardı keçməsi ilə bağlı təsis olunub.



Hesabatda dünya əhalisinin 1999-cu ildə 6 milyarda, 2011-ci ildə 7 milyarda, 2022-ci ildə isə 8 milyarda çatdığı diqqətə çatdırılır. Hesabata görə, 2022-ci ildə ən çox əhalisi olan ölkə Çin (1 milyard 425 milyon 887 min nəfər), ikinci yerdə isə Hindistan (1 milyard 417 milyon 173 min) olub. 338 milyon 290 min nəfər əhalisi ilə ABŞ üçüncüdür.

Qeyd edək ki, qeyri-rəsmi statistikaya görə, 2023-cü ildə Hindistan bu sıralamada birinci yerə çıxıb və yəqin ki, bu artıq UNFPA-nın gələn il yayacağı hesabatda əks olunacaq.

2022-ci ilin yekunlarına gəlincə, hesabata demoqrafik vəziyyətlə bağlı bir sıra parametrlər üzrə diqqətçəkən göstəricilər var. Ötən il dünya üzrə orta ömür uzunluğu 71,7 il, o cümlədən kişilər üçün 69,1, qadınlar üçün isə 74,4 il idi.

Dünyada kişilər üçün ömür uzunluğunun ən yüksək olduğu ölkə Monakodur – 85,1 il olub. Sonrakı yerdə Lixtenşteyn (83 il), üçüncü yerdə İsveçrədir (82,5 il). Azərbaycanda kişilər üçün 71,3 il ömür uzunluğu dünya ortalamasından yüksəkdir.

Qadınlar üçün ömür uzunluğuna görə də Monako birincidir – 88,9 il. 2-3-cü sıralarda Yaponiya (87,8 il) və Cənubi Koreyadır (87,1 il). Azərbaycanda qadınlar üçün ömür uzunluğu 75,9 ildir.

Yeri gəlmişkən, UNFPA-nın hesabatına görə, 2022-ci ildə Azərbaycan əhalisinin sayı 10 milyon 156 min nəfər (dünya əhalisinin 0,13 faizi) olub və ölkəmiz bu göstərici ilə dünyada 90-cı sıradadır.

# Kainat da yorulub

## Hərəkəti beş dəfə yavaşlayıb...

Alimlər astronomiya elmi tarixində ilk dəfə kainatın beş dəfə yavaş hərəkət etdiyini müşahidə ediblər. Tədqiqatçılar kainatın başlanğıcına yaxın vaxtı ölçmək üçün erkən qalaktikaların mərkəzindəki superkütləli qara dəliklərlə təchiz edilmiş kvazarlardan əldə edilən məlumatları müqayisə ediblər. Kvazarlar məlum olan ən parlaq və ən uzaq səma cisimləri arasındadır.

"Nature Astronomy" jurnalında dərc olunan tədqiqatda Sidney Universitetindən professor Geraint Lyuis qeyd edir ki, bu məlumatlar getdikcə genişlənən kainatda yaşadığımızı bir daha təsdiqləyir. "Kainatın bir milyard il əvvələ nəzərən (Kainatın indiki halının yarandığı Böyük partlayışdan sonra) beş dəfə daha yavaş axdığını görürük", – deyə o yazır.

Astrofizik Geraint Lyuis və Oklend Universitetindən astrostatistik Brendan Brever 20 il ərzində 200-ə yaxın kvazarın rənglərinə baxıblar. Daha sonra onlar hər bir kvazarın dəyişməsini standartlaşdıra biliblər. Bütün bunların nə demək olduğunu izah edən tədqiqatçılar proseslərin Albert Eynşteynin ümumi nisbilik nəzəriyyəsinin gözləntilərini təsdiqlədiyini qeyd ediblər. Yəni, uzaq kainatın indiki vaxtdan daha yavaş hərəkət etdiyi müşahidə olunur.

Professor Lyuis yazır: "Eynşteynin sayəsində biz bilirik ki, zaman və məkan bir-birinə bağlıdır və Böyük Partlayışdan sonra kainat genişlənir. Kosmosun bu genişlənməsi o deməkdir ki, ilkin kainatla bağlı müşahidələrimiz bugünkü zaman axınından çox yavaş olmalıdır. Bu tədqiqatla biz bunu Böyük partlayışdan təxminən bir milyard il sonra müəyyən etdik".

Alimlər bildirirlər ki, kainatın genişlənməsi davam edəcək və o, getdikcə böyüyəcək və boşalacaq.




Olaylar, faktlar (11–13 iyul)

**11 iyul** Dünya Əhali Günüdür (World Population Day). 1987-ci ilin 11 iyulunda Yer kürəsi əhalisinin sayının 5 milyardı keçməsi ilə bağlı təsis olunub. 1989-cu ildən BMT İnkişaf Proqramının tövsiyəsi ilə qeyd olunur.

### 299 il əvvəl...

**12 iyul 1724-cü ildə** Osmanlı imperiyası ilə Rusiya arasında İstanbul müqaviləsi bağlanıb. Sənəddə Rusiya ilə Səfəvi dövləti arasında 1723-cü ilin 12 sentyabrında bağlanmış Peterburq müqaviləsinin şərtləri təsdiq edilib. Həmin müqaviləyə əsasən, Səfəvilər Dərbənddən Ənzəliyədək Xəzəryanı bölgələri Rusiyaya güzəştə getmiş, Cənubi Azərbaycanı öz əlində saxlamışdı. İstanbul müqaviləsi ilə Osmanlı dövləti də bu bölgünü qəbul edib. Eyni zamanda müqaviləyə görə, Rusiya Xəzəryanı bölgələr istisna olmaqla Şimali Azərbaycanın qalan hissəsini Osmanlının nəzarətinə keçməsinə razılaşıb. Şirvan Osmanlının himayəsi altında xanlıq statusu alıb.

### 102 il əvvəl...



**11 iyul 1921-ci ildə** Monqolustan dövlət müstəqilliyini elan edib. Bolşevik Rusiyasının hərbi köməyi ilə Çin hökmranlığına qarşı başlanan inqilab qələbə ilə nəticələnib, Monqolustanda xalq hakimiyyəti bərqərar olub. 1924-cü ildə Monqolustan Xalq Respublikasının yarandığı elan edildi. Qədim dövlətçilik tarixi olan Monqolustan XVII əsrdə Çinin nəzarəti altına keçmişdi.

### 70 il əvvəl...

**12 iyul 1953-cü ildə** Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsi və Bakı Şəhər Komitəsinin birgə plenumunda Mircəfər Bağırov Azərbaycan KP MK-nın I katibi vəzifəsindən azad edilib. M.Bağırov 1933-cü ildən Azərbaycana rəhbərlik etmişdi. 1956-cı ilin aprelində Bağırov hakimiyyətdəki yaxın ətrafı ilə birlikdə mühakimə olundu, həmin ilin mayında SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının hökmü ilə güllələndi.

### 33 il əvvəl...

**11 iyul 1990-cı ildə** erməni təxribat dəstəsi Tərtər-Kəlbəcər sərnişin avtobusunu partlatdıqdan sonra dinc insanları güllələban edib. Terror aktı nəticəsində 14 azərbaycanlı öldürülüb, 35 nəfər yaralanıb.

### 30 il əvvəl...

**12 iyul 1993-cü ildə** Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkiyə və Türkmənistanın mədəniyyət nazirlərinin iştirakı ilə Almatı şəhərində keçirilən toplantıda "Türk Kültür və Sənətləri Ortaq Yönətimi"nin (TÜRKSOY) yaradılması haqqında saziş imzalanıb. Sonrakı illərdə Rusiya Federasiyasının Altay, Başqırdıstan, Tatarıstan, Tıva, Xakas və Saxa-Yakut respublikaları, Moldovanın Qaqauz Yeri muxtar bölgəsi və Şimali Kipr Türk Respublikası təşkilata üzv olub. Qurum 2009-cu ildən Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı adlanır.

### 28 il əvvəl...



**12 iyul 1995-ci ildə** keçmiş Yuqoslaviyanın süqutu nəticəsində meydana gələn müharibə gedişində Bosniyanın Srebrenitsa şəhərində müsəlman əhaliyə qarşı soyqırımı başlanıb. General Ratko Mladiçin başçılıq etdiyi serb qoşunları bir həftə ərzində Srebrenitsa şəhərində 16 yaşdan yuxarı kişi əhalini – 8 mindən çox insanı qətlə yetirib. Qırğın bölgədəki BMT "sülhməramlı" kontingentinin gözü qarşısında baş verib.

### 17 il əvvəl...

**13 iyul 2006-cı ildə** Türkiyənin Aralıq dənizi sahilindəki Ceyhan (Adana vilayəti) limanında Bakı-Tbilisi-Ceyhan neft kəmərinin təntənəli açılışı keçirilib. Mərasimdə Azərbaycan, Türkiyə və Gürcüstan prezidentləri başda olmaqla 30-dək ölkənin nümayəndə heyəti iştirak etmişdi. İnşası 2002-ci ildə başlanan kəmərin uzunluğu 1768 km (443 km Azərbaycan, 249 km Gürcüstan, 1076 km Türkiyə ərazisində), gündəlik nəqletmə gücü 1 milyon barreldir.

**Hazırladı: V.Orxan**

Bülbülün Memorial Muzeyinin kollektivi Azərbaycan İstiqlal Muzeyinin direktor müavini Aida Axundovaya anası

**Xoşqədəm xanımın**

vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin.**

**Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri**

# MƏDƏNİYYƏT

**Qəzet 1991-ci ilin yanvarından çıxır**

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)

**E-mail:** qazet@medeniyyet.az

**Lisenziya № AB** 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

**Tiraj:** 5053. **Sifariş:** 1716

**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MƏDƏNİYYƏT QƏZETİ REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641